26_27 IYUl-QARA.qxd 7/17/2025 10:36 PM Page 1

UNİKAL

№26 (2256) 18 iyul 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# İcra başçılarının yeni habs dalğası gözlanilir



Səh.8

## Nazir Teymur Musayev səhiyyəyə nəzarəti itirib

*Az qala elə bir gün yoxdur ki, ölkə səhiyyəsi ilə bağlı hər hansı qalmaqala şahidlik etməyək. Son olaraq öncə Beyləqan rayon Mərkəzi Xəstəxanasının poliklinika müdiri Fəxrəddin Quliyevin iş vaxtı otağında çəkilən əxlaqsız görüntülər, ardınca da Qusar rayon Mərkəzi Xəstəxanasındakı özbaşınalıqlar barədə sərt ittihamlarla dolu şikayət səhiyyə sahəsində hələ sabiq nazir Oqtay Şirəliyevin zamanından yığılıb qalan problemlərin nəinki aradan qaldırılmadığını, hətta daha da ağırlaşdığını göstərir. Beyləqandakı Mərkəzi Xəstəxananın şöbə müdiri ilə bağlı kadrların hər hansı şərhə ehtiyacı yoxdur. Bu adı çəkilən tibb müəssisəsindəki mənəvi çöküşün bariz nümunəsidir. Qusardakı Mərkəzi Xəstəxananın keçmiş əməkdaşlarının şikayətindəki iddialar isə ağlasığmazdır. Şikayət müəlliflərinin yazdığına görə, xəstəxananın direktoru Kamil Hacıyev və onun xəstəxanada aptek...*

Səh.7

## "Zəngəzur dəhlizinə kimin nəzarət etməsi mühüm məsələdir"



*Politoloq Zaur Məmmədov "Unikal"a müsahibə verib. O, Zəngəzur dəhlizinin əhəmiyyətindən, ABŞ-nin bu dəhlizə nəzarət etmək istəyindən, KTMT-dən çıxacağı halda Ermənistana qarşı münasibətin necə olacağından və gələn il Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlı hazırda bu ölkədə baş...*

Səh.4

## Monopolistlərin bahalaşma oyunu ilə bağlı yeni faktlar



*Bu ilin ilk 5 ayında Azərbaycana xarici ölkələrdən 9 milyon 674 min dollar dəyərində 5 min 604,6 ton qarğıdalı yağı idxal olunub. Bu günlərdə "Yeni avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər verir ki, idxal olunan qarğıdalı yağının 1 kiloqramının orta gömrük dəyəri 1,7 dollar (2,9 manat) olub.*

Səh.7

## 150 illik şərəfli və tarixi yol...



*Azərbaycan mətbuatının 150 illik yubileyinə sayılı günlər qalıb. 150 illik şərəfli tarixi yol keçən Azərbaycan milli mətbuatının əsası 1875-ci ildə "Əkinçi" qəzetinin nəşri ilə qoyulub. Həmin vaxtdan indiyədək mətbuatımız cəmiyyətimizin maarifləndirilməsində, milli kimliyimizin formalaşmasında, söz azadlığının təmin...*

Səh.11

26_27 IYUI-QARA.qxd 7/17/2025 10:36 PM Page 2



# Dilqəm Məhərrəmov lisenziyası olmadığı halda Aysunu necə əməliyyat edib?



***Müğənni Aysun İsmayılova bir müddət əvvəl plastik əməliyyat etdirdiyini açıqlayıb.***

Maraqlı məqam onun əməliyyat üçün plastik-cərrah Dilqəm Məhərrəmova müraciət etməsi olub. Belə ki, D.Məhərrəmovun adı bir müddət əvvəl Səhiyyə Nazirliyinin plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyəti göstərməyə icazəsi olan həkimlərin siyahısında yox idi. Yəni, onun həkim kimi fəaliyyət göstərməsinə icazə verilməyib.

Aysun iyulun 11-də yayımladığı videoda "Yüngül bir əməliyyatım var. Gedirəm Dilqəm həkimin yanına" deyə, bildirib. O, daha sonra palatadan görüntülər yayımlayıb və əməliyyatın baş tutduğunu yazıb. Bir neçə gün sonra isə Aysun evə buraxıldığı, əməliyyatın yaxşı keçdiyi barəsində məlumatlar paylaşıb.

Onun D.Məhərrəmov tərəfindən əməliyyat edilməsi sosial şəbəkədə müzakirələrə səbəb olub. Həmin paylaşımdan sonra plastik-cərrah sosial şəbəkə hesabını bağlayıb.

Aysun isə videoların çoxdan çəkildiyini, yeni olmadığını yazıb. O, ötən həftə əməliyyat olunduğunu inkar edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının kompleks şəkildə yoxlanılması məqsədilə Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb. Sözügedən tibb mütəxəssisləri Xüsusi Təftiş Komissiyasının iclaslarına dəvət olunub və sənədləri ətraflı araşdırılıb. Xüsusi Təftiş Komissiyasının açıqladığı siyahıda 42 plastik cərrahın adı yer alıb.

Dilqəm Məhərrəmov və onun özü kimi plastik-cərrah olan həyat yoldaşı Nərgiz Əhmədovanın adı siyahıda olmayıb. Onlar "Baku Medical Plaza"da çalışırdılar(Axşam.az)

# "Namiq Aygün Kazımovanın yanında oxumaqla akademiya bitirdi"



***"Kazım Can Aygün Kazımovaya bir mahnı yazıb. Hamı istəyir ona getsin".***

Bu sözləri meyxanaçı Vüqar Əbdülov Kazım Sübhanın 106.3 FM-də qonağı olarkən deyib. İfaçı Xalq artisti Aygün Kazımovanın yaradıcılığını məktəb adlandırıb: "Namiq Qaraçuxurlu yaxşı sənətkardır. Aygün Kazımova ilə oxuya-oxuya akademiya qurtardı. Yəni qiyabi.. Aygün xanımın hər sözü, hərəkəti... Namiq sanki İncəsənət Universitetində qiyabi oxudu". (Axşam.az)



# "Azərbaycanlılar TikTok-u çirkab etdi"

***Müğənni Səidə Dadaşova TikTok sosial şəbəkə platformasını tənqid edib.***

Axşam.az xəbər verir ki, sənətçi bu haqda "İncə səhər" verilişində söz açıb. O bildirib ki, TikTok-da canlı yayıma girəndə çox əsəbiləşdiyi üçün həyat yoldaşı ona qadağa qoyub:

"Dinə çox bağlıyam. TikTok-da dindən danışırdım. Çox stress yaşadım. Orada elə insanlar yazırdı ki... Fikirləşdim ki, bu platformanı bizimkilər adiləşdirdi, çirkab etdi. Normal insan da ora girəndə elə bilirlər ki, sən də onlar kimisən. Şükür Allah ağlımı əlimdən almayıb. TikTok məni əsəbiləşdirirdi, ona görə bağladım".

# Maral Tahirqızı repə başladı



***Müğənni Maral Tahirqızı məclislərin birində görüntülənib.***

O, ifası ilə yenidən sosial mediada gündəmə gəlib.

Sənətçi artıq repə başlayaraq heyranlarını məst etməyə qərar verib.

# "Müəllif Hüquqları Agentliyindən 50 qəpik də ala bilmirəm"

***Meyxanaçı Vüqar Əbdülov Müəllif Hüquqları Agentliyi tənqid edib.***

İfaçı bu haqda Kazım Sübhanın 106.3 FM-də qonağı olarkən danışıb. O bildirib ki, müəllif hüquqlarına görə agentlikdən pul ala bilmir: "Türkiyədə üç mahnım tanınır. Oradan mənə yaxşı qonorar göndərilir. Burada 300 mahnım oxunur. Müəllif hüquqları mənə 50 qəpik də vermir".

# "Məni bu dünyadan bunlar köçürəcək"

***"Mən həmişə demişəm ki, həssas adamam. Məni bu dünyadan ancaq yazılan rəylər köçürəcək. Çox adam deyir ki, TikTok-a baxma. Elə insanlar var ki, xoş, yaxşı söz də dəsən, səni pisləyirlər. Ona görə də adım bir az bədnamdı".***



Bu sözləri Əməkdar artist Yusif Mustafayev "Xəzər axşamı" verilişində deyib. Sənətçi imkanlı şəxslərin ətrafıdakı insanlara yardım etməsini tövsiyə edib:

"İnsanın balaca imkanı varsa, onu gərək tək yeməsin. Demirəm ki, 10 milyon əhalinin hamısına yardım edim, mən kiməm ki? Hərə öz ətrafın nəzərə alarsa, onda hər şey yaxşı olar. Yediyin də nuş olar".

***Xəbər verildiyi kimi, bu il iyunun 20-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Qax Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat nəticəsində rayon rəhbəri Musa Şəkiliyev saxlanılıb. Onun barəsində həbs-qətimkan tədbirinin seçilməsi üçün məhkəməyə təqdimat daxil olub. Səbayel Rayon Məhkəməsində keçirilən prosesdə istintaq orqanının təqdimatına baxılıb və Şəkiliyev barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur.***

# İcra başçılarının yeni həbs dalğası başlayır

## Hansı rayonların rəhbərləri səksəkə içindədirlər? - Sensasion adlar və iddialar!

Prezidentin iyunun 21-də imzaladığı sərəncama əsasən, Musa Şaban oğlu Şəkiliyev Qax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

Ötən sayımızda yazmışdıq ki, haqqındakı çoxsaylı korrupsiya iddiaları və faktları fonunda Şəkiliyevin öncə həbs, ardınca vəzifəsindən azad edilməsi şübhə doğurmur. İndi əsas düşündürücü suallardan biridir: növbədə hansı oliqarxlaşmış, korrupsiyalaşmış icra başçıları var?

Son zamanlar bəzi rayon rəhbərləri barəsində yayılan qalmaqallı xəbərlərdən sonra yuxarıdakı sualın cavabı üzərində çox baş sındırmağa dəymir. Belə xəbərlər icra başçılarının yeni həbs dalğasının sürpriz qarşılanmayacağını, onların siyahısının isə kifayət qədər uzun olduğunu deməyə əsas verir.

Xatırladaq ki, Azərbaycanda rayon və şəhər rəhbərlərinin ilk həbs dalğası 2020-ci ildə başlayıb. Bu periodda 8 icra başçısı həbs edilib:

1. İmişli rayonunun sabiq icra başçısı Vilyam Hacıyev 5 may 2020-ci ildə DTX tərəfindən saxlanılıb. Məhkəmənin hökmü ilə 12 il azadlıqdan məhrum edilib. Ötən il Ali Məhkəmədə onun kassasiya şikayətinə baxılıb. Qərara əsasən, V.Hacıyevin cəzası 12 ildən 8 il 6 aya endirilib.

2. Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev 11 il həbs cəzası alıb. Ötən il Ali Məhkəmə eks-icra başçısının şikayətini qismən təmin edib. Qərara əsasən, M.Quliyevin cəzası 11 ildən 8 il 3 aya endirilib.

3. Neftçala Rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev 10 il müddətində azadlıqdan məhrum edilib. 2024-cü ilin fevralında Ali Məhkəmədə keçirilən iclasda İsmayıl Vəliyevin cəzası 6 il 2 aya endirilib.

4. Cəlilabad Rayon İcra Hakimiyyətinin sabiq başçısı Namiq Zeynalova 12 il həbs cəzası verilib. 2023-cü ildə Şirvan Apellyasiya Məhkəməsində keçirilən iclasda Namiq Zeynalovun cəzası 11 il 9 aya endirilib.

5. Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədov 2021-ci ilin aprel ayında DTX tərəfindən həbs olunub. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Alimpaşa Məmmədov vəzifə səlahiyyətlərindən sui-istifadə etmədə, mənimsəmədə, rüşvət almaqda və cinayət yolu ilə əldə edilmiş dövlət vəsaitini leqallaşdırmaqda təqsirli bilinərək 11 il 6 ay müddətinə azadlıqdan məhrum olunub. Gəncə Apellyasiya Məhkəməsinin qərarı ilə Alimpaşa Məmmədovun cəzası bir il azaldılaraq 10 il 6 aya endirilib.

6. Ağstafanın sabiq icra başçısı Nizaməddin Quliyev 9 il müddətinə azadlıqdan məhrum edilib. Nizaməddin Quliyev 2021-ci ilin sentyabrın 7-də Gəncə modul tipli xəstəxanasda COVID-19-dan vəfat edib.



7. Yevlax Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov 7 il 3 ay həbs cəzasına məhkum edilib. 2023-cü ilin yanvar ayında Şəki Apellyasiya Məhkəməsinin qərarına əsasən, Q.Səmədovun cəzası 6 ilə endirilib. O, 2023-cü ilin iyul ayında azadlığa buraxılıb.

8. Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov 2020-ci ilin avqustunda saxlanılıb. Məhkəmənin hökmü ilə o, 8 il 6 ay müddətində həbs cəzasına məhkum edilib. Sonradan Şirvan Apellyasiya Məhkəməsi sabiq başçının cəza müddətini 6 ilə endirib, daha sonra Ali Məhkəmənin qərarı ilə bu müddət 4 il 6 aya qədər azaldılıb. 2025-ci ilin fevralında korrupsiya ittihamları ilə məhkum edilmiş Ceyhun Cəfərovun cəzaçəkmə müddəti başa çatıb. Eks-icra başçısı azadlığa çıxıb.

Bəs Musa Şəkiliyevin həbsi ilə başlanması proqnozlaşdırılan ikinci dalğada hansı rayon rəhbərlərini bəd sonluq gözləyə bilər? Bu sırada ilk adı çəkilənlərdən biri Vidadi İsayevdir. 2011-ci ildən Bərdə rayonunun icra başçısı olan İsayev haqqında indiyədək saysız-hesabsız ittihamlar səsləndirilib. “Bərdə camaatı hansısa rayonun başçısı həbs ediləndə dərhal ümidlənir. Onların çoxdan gözləntisi var ki, növbə İsayevə çatacaq. Çünki icra başçısı Bərdədə böyükdən kiçiyə, sahibkardan fermerə qədər hamıya ”qan uddurub”. O, nə şəhid ailəsi nəzərə alıb, nə aztəminatlı ailə nədir dəyər verib, yaşıllıq bilməyib, boş sahə qoymayıb, hara gözünə göründü satıb qurtarıb, iş adamlarının gününü qara edib və bu minvalla varlanıb. Bərdədə və ətraf ərazilərdə, o cümlədən Bakıda saysız-hesabsız obyektlər, villalar, avtomobil kolleksiyası, biznes subyektləri sahibinə çevrilib. Bəs bu pulları başçı maaşı ilə qazanmaq olardımı?” - bu günlərdə “Hurriyyet.com” saytı yazıb.

Ölkə mediasında və sosial şəbəkələrdə ünvanına çox sayda ittihamlar səslənən icra başçılarından biri isə Mərdan Camalzadədir. Onun sələfi Lütvəli Babayevin icra başçıs olduğu zaman Zərdabda həm onun, həm də digər yerli məmurların özbaşınalıqları ilə bağlı xəbərlər adi hal almışdı. Maraqlı burasıdır ki, Camalzadənin adı çəkilən rayona rəhbər təyin olunmasından sonra da bu rayonun rəhbərliyi, vəzifəli şəxsləri ilə bağlı sakinlərin şikayəti səngiməyib. Belə çıxır ki, Lütvəli müəllimin işdən azad olunmasını az qala toy-bayrama çevirən zərdablıların sevinməsi üçün elə də böyük səbəb yox imiş və bu rayonda bəzi post sahibləri üçün “köhnə hamam, köhnə tas” prinsipi ilə işləməkdən vaz keçmək bir o qədər də asan deyil. Elə ona görədir ki, Mərdan müəllimin adı haqqında ən çox şikayətlər səsləndirilən rayon rəhbərlərinin siyahısında ön sıralarda çəkilir.

2022-ci ildə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilən Elxan İbrahimovla bağlı da şikayətlər var. Onun sələfi Ceyhun Səfərov 5 il həbsdə qalsa da, bundan yerli məmurların kifayət qədər nəticə çıxarmadığı deyilir. Son təyinatadək Şamaxı Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsində çalışan, daha əvvəl Azərbaycanda bir neçə holdinqdə iqtisadiyyat və maliyyə işləri üzrə rəhbər vəzifələr tutan E.İbrahimovun göstərilən etimadı layiqincə doğrultmadığı deyilir. Bu sırada keçirilən tenderlərlə bağlı şübhələri də vurğulamaq lazımdır. Məsələn, iki ay öncə yerli mediada yayılan məlumatda deyilirdi ki, Kürdəmir Rayon İcra Hakimiyyətinin 2025-ci il ərzində keçirəcəyi tədbirlərin təşkili üçün tenderin nəticəsinə görə, bu iş Azərbaycan Menecment və İnvestisiya Korporasiyası QSC-yə həvalə olunmuş, həmin tədbirlərin təşkilinə isə 96 min manat sərf olunması nəzərdə tutulub. Lakin maraqlısı odur ki, yerli rəhbərlik bu tenderə bir ay əvvəl keçirilmiş Novruz bayramı şənliklərinin xərclərini də daxil edib. Yəni artıq baş tutan tədbir üçün xeyli sonra tender keçirilib.

Alimpaşa Məmmədovun həbsindən sonra Şəmkirə icra başçısı təyin edilən Rəşad Tağıyevlə bağlı da mərkəzi KİV-lərdə və sosial şəbəkələrdə qalmaqallı xəbərlərin ardarası kəsilmir. Bu cür xəbərlərin pik nöqtəsi isə bir neçə ay öncə yayılan məlumatdır. Həmin məlumatda bildirilib ki, rayonun Düyərli kəndinin şəhidlərinin portretlərinin əks olunduğu trafaret qoyulub. Həm şəhid ailələrinin, həm də kənd sakinlərinin istəyi ilə hazırlanan trafaretin gövdə hissəsi qoyulduğu gün isə Tağıyev tərəfindən verilən göstərişlə kobudluqla sökülərək yerlə-yeksan edilib. Sitat: “Hətta icra başçısı sözügedən trafaretin sökülərək yerlə-yeksan edilməsi üçün Şəmkir RİH-nin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rasim Mustafayev vasitəsilə yerli icra nümayəndəsi və bələdiyyə sədrinə 10 dəqiqə vaxt verib. Kənd sakinlərinin dediyinə görə həmin trafaret ildırım sürətilə və çox kobudluqla sökülərək yerlə-yeksan edilib. Bunu əks etdirən video və foto çəkilişlər də var. Şəhidlərin xatirəsinə ucaldılan trafaretin dağıdılması tək həmin kəndin əhalisinə qarşı deyil, eyni zamanda Azərbaycan şəhidlərinə, Azərbaycan xalqına edilmiş ən böyük hörmətsizlikdir. Kənd şəhidlərinin ailələrinin üzvləri İcra Hakimiyyətinə gedərək başçı Rəşad Tağıyevlə görüşərək Azərbaycanın bütövlüyü uğrunda şəhid olmuş 11 kənd sakininin fotosunun trafaretdə həkk olunmasına və trafaretin qoyulmasına icazə verilməsini xahiş etmək istəsələr də başçı onlarla görüşdən imtina edib. Şəhid ailələrinin dediyinə görə onları icra hakimiyyətinin şöbə müdirləri Rasim Mustafayev, Sərdar Namazov və başçının köməkçisi Mahir Əliyev qəbul edərək bu işin mümkünsüzlüyü və həmin trafaretin dərhal sökülməsi ilə bağlı başçının göstərişi olduğunu qeyd ediblər” (Mənbə: sesqazeti.az).

Bundan başqa, son vaxtlar Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov (2016-cı ildən bu vəzifəni tutur) və İmişli Rayon İcra Hakimiyyətinin başçısı (2020-ci ildən bu vəzifədə çalışır) haqqında da şikayət, ittiham xarakterli məlumatlara mütəmadi rast gəlinir. Hər iki icra başçısı barədə deyilənlərdən onların vətəndaş şikayətlərinə laqeyd münasibət bəslədiyi, rəhbərlik etdikləri rayonlarda sosial-iqtisadi problemlərin həlli istiqamətində effektiv addımlar atmadığı, dövlət satınalmalarında şəffaflığı təmin etmədiyi və büdcə vəsaitlərini səmərəli xərcləmədiyi qənaətinə gəlmək mümkündür.

Əlbəttə, əhalinin fəaliyyətindən narazı qaldığı icra başçılarının siyahısı yuxarıda adları çəkilənlərlə yekunlaşmır, ona görə də mövzunu davam etdirəcəyik.

***Sənan Mirzə***

# "Yemək yeyə bilmədiyi üçün bir həftə sonra öldü" - Şahidlər danışdı

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 17-də davam etdirilib.***

”Unikal” xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Ələddin Əkbərov 1990-cı ildə düşmən tərəfindən girov götürüldüyünü deyib. Girovluqda saxlanıldığı 2 ay müddətində betonun üstündə yatdığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında deyib ki, girovluqda dişləri qırılıb, başı yarılıb, ona digər xəsarətlər yetirilib. Girovluqda olduğu müddətdə çəkisi 87 kiloqramdan 45 kiloqrama düşüb.

Zərərçəkmiş şəxs İdris Məmmədov 1993-cü ilin fevral ayında döyüşlər zamanı əsir götürüldüyünü söyləyib. O, Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan suveren ərazilərində, o cümlədən evlərdən birinin zirzəmisində, Xankəndidə, Şuşa həbsxanasında saxlanıldığını deyib. Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, əsirlikdə saxlanılan zaman işgəncələrə məruz qalıb, dəyənəklə, yumruq və təpiklə döyülüb. Əsirlikdə olduğu üç ay müddətində ona az miqdarda çörək və su verilib.

Zərərçəkmiş Maarif Rüstəmov ifadəsində 2020-ci ildə baş vermiş 44 günlük müharibədə iştirakı zamanı ağır yaralandığını söyləyib. O, hadisənin sentyabrın 27-də Kəlbəcər rayonu istiqamətində, Murovdağda baş verdiyini bildirib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında deyib ki, həmin vaxt özündən başqa daha 2 nəfər yaralanıb, 4 nəfər şəhid olub.

İlham Əsgərov ifadəsində deyib ki, 1993-cü ilin iyul ayında Ağdərə istiqamətində döyüşlərdə 8 nəfər azərbaycanlı hərbçi ilə birlikdə əsir götürülüb. Bildirib ki, onunla birlikdə əsir götürülmüş Azər adlı azərbaycanlı işgəncə və döyülmə nəticəsində ölüb. Beş ay sonra qaçaraq əsirlikdən azad olub. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, əsirlikdə olduğu müddətdə döyülüb və işgəncələrə məruz qalıb: “İndi də əlimdə sınıq, başımda çat izləri qalır”.

Bəxtiyar Cəlilov ifadəsində bildirib ki, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Kəlbəcər rayonunda xidmətdə olarkən, oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində yaralanıb.

Süleyman Sofuyev 2016-cı ilin Aprel döyüşlərində əsgər kimi iştirak etdiyini və yaralandığını deyib. O, dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında həmin vaxt Ermənistan silahlı qüvvələrinin onlara qarşı hücuma keçdiyini, hadisənin düşmən qüvvələrindən müdafiə olunarkən baş verdiyini söyləyib.

Söhrab Əsgərov bildirib ki, 2023-cü il mayın 12-də Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralanıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, hadisə zamanı əsgər Məhəmməd Qarayev şəhid olub, daha bir neçə hərbçi isə xəsarətlər alıb.



Teymur Xıdırov 2020-ci ildə baş vermiş 44 günlük müharibədə, noyabrın 3-də avtomobillə gedərkən Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində yaralandığını deyib. Həmin xəsarətlər nəticəsində səhhətində ciddi problem yaranmış zərərçəkmiş şəxs məhkəmədə çətinliklə ifadə verib.

İmran İmranlı ifadəsində 2021-ci il iyulun 27-dən 28-nə keçən gecə Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatı nəticəsində güllə yarası aldığını söyləyib.

Zərərçəkmiş Renat Əliyev bildirib ki, 2020-ci il sentyabrın 14-də Tovuz rayonunda Ermənistan silahlı qüvvələrinin təxribatı zamanı güllə xəsarəti alıb. Nəticədə sağlamlığına ciddi zərər deyib, 35 gün xəstəxanada yatıb.

Şakir İsmayılzadə ifadəsində 44 günlük müharibədə, 2020-ci il noyabrın 3-də Tərtər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib.

44 günlük müharibənin digər iştirakçısı Malid Qənbərov ifadəsində 2020-ci il noyabrın 8-də Daşaltıda Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını deyib.

Vüsal Mahmudov ifadəsində 44 günlük Vətən müharibəsinin başladığı gün - 2020-ci il sentyabrın 27-də çoxsaylı qəlpə yaraları və yanıq xəsarətləri aldığını bildirib.

Etibar Məmmədov ifadəsində 1993-cü ildə Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürüldüyünü deyib. O, 7 ay Şuşa həbsxanasında saxlanılıb. E.Məmmədov özünə və digər azərbaycanlı əsir və girovlara işgəncələr verildiyini, nəticədə ölənlərin olduğunu bildirib.

Şirin Bayramov bildirib ki, 1994-cü il yanvarın 12-də Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, Xankəndidəki keçmiş 366-cı alayın olduğu yerə aparılıb. 8 ay Xankəndində saxlanılıb. Əsirlikdə olduğu müddətdə mütəmadi olaraq döyülüb, ləyaqətini alçaldan hərəkətlərə məruz qalıb. “Üç dəfə burnum qırılıb və digər xəsarətlər yetirilib”, - deyə Ş.Bayramov qeyd edib. O, Azərbaycanın həmin vaxt Ermənistanın işğalı altında olan digər suveren ərazilərinə aparılan zaman bir neçə nəfər azərbaycanlı əsir və girovla birlikdə qaçıb.

Zərərçəkmişin qardaşı - digər zərərçəkmiş şəxs Ağagül Bayramov ifadəsində 1994-cü il yanvarın 12-də qardaşı ilə birlikdə əsir götürüldüyünü bildirib. O, Ş.Bayramovla müqayisədə daha çox - 2 il 5 ay əsirlikdə qalıb.

Firəngül Kərimova ifadəsində Xocalıdan məcburi köçkün düşdüyünü, soyqırımının şahidlərindən olduğunu bildirib. Soyqırımı zamanı onun 4 doğması qətlə yetirilib. Bu şəxslər F.Kərimovanın atası - Kərimov Firuz Samran oğlu, babası - Kərimov Samran Soltan oğlu, nənəsi - Kərimova Firəngül Məmməd qızı və əmisi - Kərimov Soltan Samran oğludur.

“Mart ayının 20-də atamın, nənəmin və babamın meyitləri eyni yerdə tapıldı. Atam leytenant Firuz Kərimov çox dəhşətli işgəncələrlə qətlə yetirilmişdi. Hətta alnının dərisi soyulmuş vəziyyətdə idi. Nənəmin bir ayağı, bud hissəsindən aşağısı tamam yox idi”, - deyə o əlavə edib.

Sadiq Xudayarov ifadəsində Xocalı soyqırımı zamanı - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə babasıgildə olduğunu bildirib. Onlar evlərini tərk etmək məcburiyyətində qalıb. Fevralın 27-də düşmən qüvvələri ilə rastlaşıblar. Həmin vaxt düşmənin açdığı atəşlər nəticəsində Mehdi adlı azərbaycanlı öldürülüb, S.Xudayarovun əmisi ayağından yaralanıb. Düşmən onları böyük dama yığıb. S.Xudaverdiyev bildirib ki, avtomatın qundağı ilə xəsarət yetirilməsi nəticəsində anası ikinci qrup əlil olub. Atası da işgəncələrə məruz qalıb, qabırğaları sındırılıb.

Fərzani Nəcəfzadə ifadəsində 2022-ci ilin avqust ayında Hadrutda düşmənin basdırdığı minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Zamin Hətəmli ifadəsində göstərib ki, 2023-cü il dekabrın 7-də traktorla torpaq şumlayarkən Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndi ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarət alıb, traktor isə yanaraq məhv olub.

Rəsul Cəfərov 1993-cü il yanvarın 4-də əsgər yoldaşı Afiq Qasımovla birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Onlar əvvəlcə Ağdərədə, daha sonra Qırmızı Bazarda və Şuşada saxlanılıblar. Əsirlik müddətində ona və digər azərbaycanlılara işgəncələr verilib. Üzərlərinə qaynar su tökülüb, bədəni bıçaqla kəsilib. “İndi mənim bədənimdə salamat yer yoxdur”, - deyə o bildirib. Qırmızı Bazarda fermada saxlanılarkən Artur adlı erməni Habil Bayramov adlı azərbaycanlının çənəsini qırıb. H.Bayramov yemək yeyə bilməməsi və aldığı xəsarətlər nəticəsində bir həftə sonra ölüb. Ermənistan silahlı qüvvələri hərbçilərinin göstərişi ilə azərbaycanlı əsir və girovlar H.Bayramovun meyitini fermanın yaxınlığında torpağı qazaraq basdırıblar. R.Cəfərov avqustun 24-də əsirlikdən azad edilib.

Nail Nağızadə ifadəsində 2016-cı il aprelin 2-də Tərtərdə Ermənistan silahlı qüvvələrinin açdığı snayper atəşi nəticəsində yaralandığını söyləyib. O, təqsirləndirilən şəxs Levon Mnatsakanyanın sualına cavabında hadisənin Ermənistan silahlı qüvvələrinin hücumundan müdafiə olunan zaman baş verdiyini deyib.

Cahid İsmayılov ifadəsində 44 günlük müharibədə, 2020-ci il oktyabrın 2-də Göygöl rayonunda yerləşən döyüş postunda düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxslər - Səbuhi İbrahimov və Səxavət Rəşidov ifadələrində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Zərərçəkmiş Tarzan Musayev ifadəsində 44 günlük müharibə zamanı, 2020-ci il oktyabrın 10-da düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində qapalı kəllə-beyin travması aldığını deyib.

Babək Məmmədli ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Talış kəndi istiqamətində, Şıştəpə postunda yaralandığını bildirib. O, 44 günlük müharibədə əkiz qardaşı Cavidan Məmmədlinin şəhid olduğunu, nəşinin 127 gündən sonra qaytarıldığını deyib.

Yasin Mehralıyev işğaldan azad edilmiş Xocalı rayonunun Sığnaq kəndində şirkətlərdən birinin əməkdaşı qismində çalışarkən düşmən tərəfindən basdırılmış minaya düşərək xəsarət aldığını söyləyib.

Şamil Məmmədov ifadəsində 2022-ci il iyulun 14-də yük maşını ilə “Azərsun” şirkətinə aid olan sahədən - Cəbrayıl rayonunun Dağ Tumas kəndindən buğda gətirərkən düşmən tərəfindən basdırılmış iki ədəd tankəleyhinə minanın partlaması nəticəsində xəsarət aldığını bildirib. Nəticədə sol ayağı amputasiya edilib.

Vaqif Həsənov ifadəsində 1988-ci ilədək Xocalının Xanabad kəndində yaşadığını, ermənilər tərəfindən 4 azyaşlı övladı ilə hədələnərək kənddən məcburi şəkildə köçkün düşdüyünü bildirib. O, Ağdam rayonunda məskunlaşıb. “Mənim iki evim talanıb”, - deyə zərərçəkmiş şəxs bildirib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.



# Apellyasiyada əvvəlcədən ödəniş sistemi tətbiq oluna bilər – Rəsmi

***“Beynəlxalq imtahanlarda belə bir qayda var ki, apellyasiya müraciəti üçün müəyyən məbləğdə depozit qoyulur. Əgər apellyasiya təmin olunarsa, bu məbləğ geri qaytarılır. Amma təmin olunmazsa, həmin məbləğ qalır. Ola bilsin ki, biz də bunu Tarif Şurasına təklif edək. Amma bizdə bunun belə tətbiq ediləcəyini hələ deyə bilmərəm”.***

Modern.az xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə “Azərbaycan müəllimi”nə açıqlamasında deyib.

O bildirib ki, bir çox hallarda imtahan nəticələri elan edilməmişdən əvvəl iştirakçılara apellyasiya müraciəti etmək tövsiyə edilir: “Məsələn, imtahan dünən keçirilib, nəticələr hələ açıqlanmayıb. Amma sosial şəbəkələrə baxanda görürsən ki, blogerlər, təhsillə heç bir əlaqəsi olmayan şəxslər namizədlərə apellyasiya başlayan kimi mütləq ərizə yazaraq müraciət etməyi məsləhət verirlər. Axı nəticə hələ elan olunmayıb, nəyi apellyasiyaya verirlər, bilinmir. Hətta bəzi şəxslər “Bizə müraciət edin, ərizəni sizin yerinizə biz yazarıq, yaxşı da baxılar”, - deyirlər”.

M.Abbaszadə qeyd edib ki, apellyasiya müraciəti anonim olmur: “Biz şikayətçinin işinə baxmaq üçün onu yoxlayan markeri də dəvət etməliyik, o, burada əyləşməli, telefonu da yanında olmamalıdır. Apellyasiya elə şəraitdə aparılır ki, heç kim bu prosesə təsir göstərə bilməsin. Bütün bunlar həm vaxt, həm də resurs tələb edir. Amma görürük ki, vərəqi boş saxlayanlar, heç nə yazmayanlar da apellyasiyaya müraciət edirlər”.

M.Abbaszadə vurğulayıb ki, apellyasiya müraciəti edərkən ərizədə yalnız əlaqə üçün yalnız bir telefon nömrəsi göstərilməlidir. Ancaq DİM 85-ə yaxın telefon nömrəsi müəyyən edib ki, onların hər biri 15-20 apellyasiya ərizəsində qeyd edilib: “Həmin nömrələr 10-15 ərizədə təkrar qeyd olunub. Bunu da çox zaman abituriyentlər öz təşəbbüsləri ilə etmirlər. Tədris kursları məzunlarına deyir ki, apellyasiya müraciəti etsələr, nəticələrini yüksəldəcəklər. Amma nəticədə heç nə dəyişmir, müraciətin heç bir faydası olmur. Sonda görürük ki, yüzlərlə abituriyent boş vərəqləri belə apellyasiyaya verir. Bu, bizim vaxtımızı alır. 100 min nəfər imtahan veribsə, onun təxminən 10 min nəfəri ərizə ilə müraciət edir. Onların da yarısının işi boş vərəqlər olur”.

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 5



# Prezident Berdiməhəmmədova Qarabağ atı hədiyyə etdi



***İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Cıdır düzündə olublar.***

"Unikal" xəbər verir ki, burada Qarabağ atlarının təqdimatı keçirilib.

Prezident İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adlı Qarabağ atını hədiyyə edib.

# Şuşada güllələbaran edilmiş heykəllərə baxdılar



***İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxıblar.***

"Unikal" xəbər verir ki, işğal zamanı ermənilərin bu heykəlləri Ermənistana apararaq əritmək istədikləri barədə Qurbanqulu Berdiməhəmmədova məlumat verilib. Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra isə həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

# Şahin Şıxlinski axtarışa verildi



***Uraldakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinski Rusiyada axtarışa verilib***

"Unikal" xəbər verir ki, Şahin Şıxlinski dövlət məmuruna qarşı zorakılıq tətbiq etməklə bağlı axtarışa verilib.

Onun Moskvada hotellərdən birində gizləndiyi iddia edilir.

Şahin Şıxlinskinin oğlu Mutvali Şıxlinski iyulun 1-də Yekaterinburqda həbs zamanı təhlükəsizlik xidməti əməkdaşına fiziki güc tətbiq etməsi ittihamı ilə 2 aylıq həbs edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Ölkə üzrə unun ucuz və baha satıldığı yerlər açıqlandı

***Bu günə Azərbaycandakı un istehsalçılarının topdansatış məntəqələrində 50 kq-lıq un kisəsinin satış qiyməti 25,8-28 manat, o cümlədən Bakı şəhərində və Abşeron rayonunda 26,5-27,3 manat civarında dəyişib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Agentliyinin məlumatında deyilir.

Qeyd edilib ki, ölkə üzrə unun ən aşağı topdansatış qiyməti 25,8 manat olmaqla Şabran rayonunda, ən yüksək topdansatış qiyməti 28 manat olmaqla Gəncə şəhərində qeydə alınıb.

# Samir Nuriyev BƏƏ-nin Hesablama Qurumunun nümayəndə heyətilə görüşüb

***İyulun 17-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Hesablama Qurumunun sədri Humeyd Obeyd Abuşibsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlərin cari vəziyyətindən məmnunluq ifadə olunub. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə son səfərinin və hər iki ölkənin dövlət başçılarının iştirakı ilə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaratdığı xüsusilə vurğulanıb.

Son illər Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadiyyat, nəqliyyat, enerji, mədəniyyət sahələrində və digər sahələrdə münasibətlərin davamlı və dinamik inkişaf etdiyi vurğulanıb. BƏƏ şirkətlərinin Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrində istifadə sahəsində bir sıra uğurlu layihələr icra etdiyi bildirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətlə davam etdiyi diqqətə çatdırılıb. Görülmüş işlərin nəticəsi olaraq artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqları bildirilib. Eyni zamanda, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə göstərdiyi maliyyə dəstəyinə görə BƏƏ-yə təşəkkür ifadə edilib.

Həmçinin Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Birləşmiş Ərəb Əmirliklərinin Hesablama Qurumunun fəaliyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, institusional islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması istiqamətində görülən tədbirlər və həmin sahələr üzrə ikitərəfli və beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# II və III qrup üzrə qəbul imtahanının nəticələri açıqlandı

***Dövlət İmtahan Mərkəzi II və III ixtisas qrupları üzrə iyulun 6-da keçirilən qəbul imtahanının nəticəsini elan edib.***



"Unikal" xəbər verir ki, abituriyentlər imtahanın nəticələri haqqında məlumatı, mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə imtahana buraxılış vərəqəsində verilən kodu 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 41 min 484 abituriyentdən (II qrup üzrə 18014 nəfər, III qrup üzrə 23470 nəfər) 1 160 nəfər (II qrup üzrə 616 nəfər, III qrup üzrə 544 nəfər) imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 12 nəfər qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

Bu imtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 388.3 bal toplayan Bakı şəhər 89 saylı tam orta məktəbin məzunu Mansurov Eldar Ramiz oğlu göstərib. O, imtahanın birinci mərhələsində 278.7 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 677.9 bal toplayan Bakı şəhər 83 saylı məktəb-liseyin məzunu Zeynallı Nilufər Hidayət qızı göstərib. O, imtahanın birinci mərhələsində 291.1 bal, ikinci mərhələsində isə 386.8 bal toplayıb.

Bu imtahanda III ixtisas qrupu üzrə ən yüksək nəticəni 397 bal toplayan Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın məzunu Baxşəliyeva Aytac Ənvər qızı göstərib. O, hər iki mərhələnin cəminə görə III ixtisas qrupu üzrə 691.8 bal toplamaqla ən yüksək nəticəni göstərən abituriyentdir. Baxşəliyeva Aytac imtahanın birinci mərhələsində 294.8 bal toplayıb.

Xatırladaq ki, imtahanın I mərhələsində maksimal olaraq 300, II mərhələsində isə 400 bal toplamaq mümkündür. Müsabiqə hər iki mərhələdə toplanılan balların cəminə görə aparılır.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apellyasiya Komissiyası fəaliyyət göstərəcək. Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 18 iyul saat 10:00-dan 20 iyul saat 17:00-dək tarixlərində DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apellyasiya Komissiyasına müraciət edə bilməyəcəklər.

Cavab vərəqində təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərlə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) bağlı müraciətlərə baxılmayacaq.

Apellyasiya Komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış ola bilərlər. Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 15%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 6



# İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovu Qarabağda qonaq etdi

***Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna gəlib.***

”Unikal” xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Qurbanqulu Berdiməhəmmədovu Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı. Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Xalq Məsləhətinin sədrinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar. Qonaq şəhərin Baş planı ilə tanış olub. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qurbanqulu Berdiməhəmmədova 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində törədilən dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verib. Vaxtilə sıx məskunlaşmış və çiçəklənən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək, viran qoyulub. Torpaqlarımız işğaldan azad ediləndən sonra qısa müddətdə Füzuli şəhərinin Baş Planı hazırlanıb, Prezident İlham Əliyev tərəfindən təsdiqlənib və 2021-ci ildə ictimaiyyətə təqdim edilib. Böyük nəqliyyat-logistika potensialına malik olan Füzuli Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Füzuli şəhərinin ümumi sahəsi təxminən 1942 hektardır. Baş plana əsasən, 2040-cı ilə qədər şəhərdə 50 min nəfərin yaşaması nəzərdə tutulur. Füzulidə İşğal və Zəfər muzeylərini əhatə edəcək Füzuli Memorial Kompleksi yaradılacaq, Kurmanqazı adına Yaradıcılıq Mərkəzi inşa olunub, şəhər xəstəxanası tikilir, Şəhər Parkı salınacaq, genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri həyata keçiriləcək. Baş plana əsasən, uşaq bağçaları və məktəblər kimi sosial infrastruktur obyektləri müvafiq olaraq 300 və 500 metrlik məsafədə yerləşəcək. Görüləcək işlər nəticəsində müasir standartlara və memarlıq özəlliklərinə uyğun inşa olunacaq Füzuli şəhəri azad edilmiş ərazilərdə iri şəhərlərdən birinə çevriləcək. Burada “Ağıllı şəhər” konsepsiyası tətbiq olunacaq. Füzuli şəhərinin 12 hektardan çox olan ərazini əhatə edəcək inzibati mərkəzi isə 3 hissəyə bölünəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşa şəhərində inşa edilən birinci yaşayış kompleksində olublar. Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə kompleks barədə məlumat verib. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bu kompleksin təməlini 2021-ci ilin avqustunda Azərbaycan Prezidenti qoyub. Yaşayış kompleksində ümumilikdə 450 mənzil var. Onlardan 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Burada keçmiş məcburi köçkünlər və Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər üçün xidməti mənzillər istifadəyə verilib. Bu yaşayış kompleksinə indiyədək 376 keçmiş məcburi köçkün ailəsi, ümumilikdə isə 1409 nəfər köçürülüb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə həyata keçirilən işlər haqqında məlumat verdi. Bildirilib ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və memarlıq həlli rəmzi xarakter daşıyan məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi seçiləcək. Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən məscidin forması 8 rəqəmini əks etdirəcək. Bu da öz növbəsində Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Məscidin iki minarəsi isə 11 rəqəmi formasında olacaq. Bu isə Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzidir. Minarələrinin hündürlüyü 72 metr olacaq məscid Şuşanın yuxarı hissəsində inşa edilir. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Hazırda işlərin 60 faizindən çoxu həyata keçirilib. Məscidin inşasının gələn il yekunlaşdırılması nəzərdə tutulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisi ilə tanış olublar. Ölkə əhəmiyyətli memarlıq abidələri siyahısında olan bu binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Yaradıcılıq Mərkəzi 2023-cü il mayın 10-da istifadəyə verilib. Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağın sosial, iqtisadi, siyasi və mədəni inkişafında xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda, Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb.

Qeyd edək ki, 1969-cu ildən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Dahi şəxsiyyət mürəkkəb tarixi şəraitdə belə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolunun istismara verilməsi Qarabağın digər rayonlarımızla təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi baxımından Ulu Öndərin strateji addımı olmaqla yanaşı, həm də böyük tarixi xidməti idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Bülbülün ev-muzeyində olublar. Milli Məclisin deputatı Polad Bülbüloğlu qonağa görkəmli musiqiçinin bu evdə anadan olduğu və uşaqlıq illərini burada keçirdiyi barədə məlumat verib. Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün doğulduğu və yaşadığı ev onun ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşanın azad olunmasından sonra digər tarixi-mədəni abidələrimiz kimi Bülbülün ev muzeyinin də bərpasına başlanılıb və 2021-ci ilin avqustunda bərpa işlərinin bitməsindən sonra muzeyin açılışı olub. Ev-muzeyinin həyətində Bülbülün yeni büstü ucaldılıb. Şuşa şəhəri işğal altında olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü də erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər. Qurbanqulu Berdiməhəmmədovun diqqətinə çatdırıldı ki, vaxtilə işğal edilmiş bütün ərazilərimizdə olduğu kimi, Şuşada da tarixi abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqir edilib. Şəhərin 17 məscidindən 16-sı işğalçılar tərəfindən dağıdılmışdı. Şuşa işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırığı ilə dərhal məscidlərin bərpa edilməsi işinə başlanılıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər Ağa məscidi olub. Heydər Əliyev Fondu tərəfindən burada həyata keçirilmiş bərpa işlərinə 2021-ci ilin sonlarından başlanıb. 2023-cü il mayın 10-da isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə məscidin əsaslı yenidənqurma və bərpadan sonra açılışı olub. Yuxarı Gövhər Ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Mehmandarovların malikanə kompleksində olublar. Qonağa böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaqdan ibarət kompleksin Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunduğu barədə məlumat verildi. Bildirildi ki, Azərbaycanın zəngin memarlıq ənənələrinin nadir nümunələrindən biri olan Mehmandarovların malikanə kompleksi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. 2021-ci ilin oktyabrından etibarən kompleksdə, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bu bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. 2023-cü il mayın 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər. Bərpa işlərindən sonra malikanə kompleksində muzey ekspozisiyası da qurulub. “Qarabağ zadəganının evi” mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu-XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

***İnformasiya Şöbəsi***




## Vüqar Gülməmmədov: “Azərbaycan və Qazaxıstan paralel audit üzrə razılıq əldə edib”

***Azərbaycan və Qazaxıstan paralel audit üzrə razılıq əldə edib. Bu barədə Palatanın sədri Vüqar Gülməmmədov Bakıda keçirilən ASOSAI-nin İdarə Heyətinin 62-ci iclası çərçivəsində jurnalistlərə açıqlamasında deyib.***

Onun sözlərinə görə, müvafiq razılaşmanın sentyabr ayının sonunda imzalanaraq rəsmiləşdirilməsi nəzərdə tutulur. Sədr əlavə edib ki, bu əməkdaşlıq dövlət vəsaitlərinin səmərəli istifadəsinin auditi sahəsində təcrübə və bilik mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Vüqar Gülməmmədov həmçinin bildirib ki, Azərbaycan Respublikası Hesablama Palatası ASOSAI çərçivəsində yaradılan yeni ”Proqnozlaşma və Dövlət Maliyyəsinin Qiymətləndirilməsi üzrə İşçi Qrup”un üzvü olmaq üçün öz namizədliyini irəli sürüb: “Fiskal risklər və hökumətlərin qarşısında dayanan çağırışların həllinə yönəlik vəsaitlərin auditi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi Palatamız üçün vacib töhfələr verəcək”.

Sədr qeyd edib ki, Hesablama Palatası ASOSAI-ya üzvlüklə yanaşı, Qazaxıstan, Qırğızıstan, Koreya Respublikası və Çin Xalq Respublikası ilə ikitərəfli Anlaşma Memorandumları imzalayıb. Bu memorandumlar çərçivəsində təlimlər, seminarlar, eləcə də bilik və təcrübə mübadiləsi həyata keçirilir.

“Türkiyə ilə də memorandumun yenilənməsi istiqamətində iş aparılır. Hazırda İğdır-Naxçıvan qaz kəmərinə çəkilən xərclərin auditini başa çatdırmışıq. Eyni zamanda iqlim dəyişiklikləri və kənd təsərrüfatı sahələri üzrə paralel auditlərin keçirilməsi planlaşdırılır”, - deyə Vüqar Gülməmmədov əlavə edib.

# “Zəngəzur dəhlizinə kimin nəzarət etməsi mühüm məsələdir”

## Zaur Məmmədov: “Bu, Rusiyanı, ABŞ-ni, Ermənistanı və İranı toqquşduran məqamdır. Bu günə qədər yolun açılmamasının ən böyük səbəblərindən biri də bu məsələdir”

***Politoloq Zaur Məmmədov ”Unikal”a müsahibə verib. O, Zəngəzur dəhlizinin əhəmiyyətindən, ABŞ-nin bu dəhlizə nəzarət etmək istəyindən, KTMT-dən çıxacağı halda Ermənistana qarşı münasibətin necə olacağından və gələn il Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlı hazırda bu ölkədə baş verənlərdən danışıb.***

***-Zaur müəllim, Ermənistan Baş naziri Nikol Paşinyan keçirdiyi mətbuat konfransında regionda nəqliyyat infrastrukturunun açılmasında maraqlı olduqlarını bildirib. Məlum olduğu kimi, bölgədə sülh üçün Zəngəzur dəhlizinin açılması əhəmiyyətlidir. Sizcə, dəhliz nə zaman açıla bilər?***

-Ermənistanın Baş naziri Nikol Paşinyan keçirdiyi mətbuat konfransında bir sıra sualları cavablandırıb. O cümlədən, nəqliyyat infrastrukturu ilə bağlı vacib məqamlara toxunulub, Zəngəzur dəhlizinin açılması və bununla bağlı fikirini bildirib. Bəzi qüvvələrin narahat olduğu, bəzilərinin isə açılmasını dəstəklədiyi məsələlərdən biri məhz Qərbi Zəngəzur torpaqlarından keçəcək nəqliyyat yolunun açılması ilə bağlıdır. Bu təkcə regional deyil, Avrasiyanın orta xəttində çox vacib arteriyalardan biridir. Tək Şərq-Qərb deyil, eyni zamanda Cənub-Qərb, Şimal-Qərb, Şərq-Qərb və digər bir sıra şaxələndirilmiş variantlarda gələcəkdə istifadə edilə bilər. Çox güman ki, hələ Əbu-Dabidə keçirilən görüşdən əvvəl bu yolun açılması, prinsipial məsələlərlə bağlı razılığa gəlinib. Əgər əvvəllər bu razılıq yox idisə, bu dəfə görünən odur ki, hər iki tərəf arasında razılıq var. Hətta üçüncü tərəflərin də burada bu və ya digər şəkildə iştirakından söhbət gedir. İndi iradə nümayiş etdirərək Zəngəzur dəhlizini açmaq qalır. Bu, əlbəttə, Ermənistanın üzərinə düşür. Ermənistanın baş naziri iradə nümayiş etdirərək, heç kimdən çəkinməyərək Zəngəzur dəhlizinin açılamsı ilə bağlı qərar versin. Bilirik ki, Rusiyanın Zəngəzur dəhlizinin açılması ilə bağlı öz yanaşması var. İran tərəfində də Zəngəzur dəhlizi ilə bağlı yanaşmada qəti mövqe var idi ki, bu yol açılmalı deyil. Bu gün həmin mövqedə bir qədər dəyişikliklər var. Görünən odur ki, oradakı bəzi qruplar arasında fikir ayrılığı var. ABŞ, Çin və Avropa İttifaqının da öz mövqeyi mövcuddur. Belə olan təqdirdə coğrafi cəhətdən kiçik Ermənistanın bu yolla bağlı qərar verməsi həm də bir sıra geosiyasi, geoiqtisadi mövqelərdən və beynəlxalq konyukturanın mövqeyindən asılıdır.

***-Bu günlərdə ABŞ-nin Türkiyədəki səfiri Tom Barrak bildirib ki, ABŞ Zəngəzur dəhlizinə nəzarəti öz üzərinə götürməyi təklif edib. Onun sözlərinə görə, ABŞ Zəngəzur dəhlizini nəzarətə götürsə, tərəflər buradan rahatlıqla istifadə edə bilərlər. Zəngəzur dəhlizinə nəzarət ABŞ-yə verilsə, bölgəmizdə hansı hadisələr baş verə bilər?***

-Zəngəzur dəhlizinə kimin nəzarət etməsi mühüm məsələdir. Artıq 5 ildir ki, bu, diskussiya mövzusudur. Rusiyanı, ABŞ-ı, Ermənistanı və İranı toqquşduran məqamdır. Bu günə qədər yolun açılmamasının ən böyük səbəblərindən biri də bu məsələdir. Məsələnin kökündə bu məqam dayanır ki, yola hansı dövlət nəzarət edəcək. Ermənistan hökuməti bildirir ki, yola nəzarəti onlar özü edəcək. Son vaxtlar ABŞ şirkətinin bu yola nəzarət etməsi ilə bağlı fikirlər irəli sürülür. Bu, Azərbaycanın deyil, birbaşa Ermənistanın məsuliyyətidir. Bu baxımdan Ermənistan tərəfi özü bununla bağlı fikirləşsin. Yolun açılmasından narahat olan bəzi qüvvələr yaxşı olar ki, Azərbaycanla bağlı deyil, Ermənistanla ikitərəfli münasibətlərini və oradan çıxan qərarları sorğu-sual etsinlər. Bu məsələdə böyük ölkələr arasında ciddi şəkildə fikir ayrılığı var. Buna görə də yolun açılması məsələsinin uzanmasını görürük. Görünən odur ki, Türkiyə və ABŞ arasında Zəngəzur dəhlizinin açılması ilə bağlı dialoq baş tutub, müəyyən razılıqlar var. İran Prezidenti Məsud Pezeşkianın Əbu-Dabi görüşü ərəfəsində Zəngəzur dəhlizi ilə bağlı verdiyi müsbət açıqlama da onu göstərir ki, İran tərəfi region dövlətləri ilə bu məsələləri müzakirə edib. Pezeşkianın məsələnin lehinə olmasına müəssər olublar. Amma Pezeşkianın bu açıqlaması onu göstərir ki, İranda da bununla bağlı ciddi narazılıq var. Hazırda ABŞ-İran arasında dialoq getdiyindən onlar bu və digər məsələlərdə bazarlıq etməklə məşğuldurlar.

***-Paşinyan Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxma ehtimalının yüksək olduğunu deyib. Onlar bundan əvvəl də KTMT-dən çıxacaqlarını bəyan ediblər. Ermənistan bu təşkilatdan çıxarsa, Moskva ilə İrəvan arasında münasibətlər necə ola bilər?***

-Əlbəttə Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq istəyir. Nikol Paşinyan Ermənistan dövlətinin gələcəyini Rusiyadan asılı olmayaraq görmək istəyir. Onun baş nazir olmamışdan əvvəl blokunun adı da ”Çıxış” idi. ”Çıxış” isə o deməkdir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Rusiyadan birbaşa idarə olunan hərbi-siyasi təşkilatlardan uzaq olmaq. Bunun əksinə olaraq Ermənistanı Avropaya yaxınlaşdırmaqdır. İndiki halda Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə bağlı qərar verərsə, bu, radikal qərarın verilməsi sayılacaq. Çünki 2026-cı ildə Ermənistanda seçkilər olacaq. Görünən odur ki, həm Ermənistan, həm də Rusiya rəhbərliyi bir-birinə qarşı sərt ritorikalardan istifadə edə bilər. “Taşir” şirkətlər qrupunun sahibi Samvel Karapetyanın həbs edilməsi, erməni kilsəsi ilə bağlı Ermənistan siyasi hakimiyyətinin apardığı addımlar, Rusiya tərəfindən bütün bunlarla bağlı verilən açıqlamalar onu göstərir ki, seçkilər öncəsi tərəflər arasında soyuq müharibə başlayıb. Düzdür, Paşinyanın digər yolu da var. O apardığı siyasətdən imtina edərək Rusiya ilə yaxınlaşa bilər. Hələki bu qərarın verilməsi gecikməyib. Belə bir ehtimal da var. Amma görünür ki, Ermənistan rəhbərinin aldığı məlumatlar, Samvel Karapetyanın siyasi məsələlərə qoşulması, kilsənin atdığı addımlar, eyni zamanda son dövrlər erməni müxalifətinin aktivliyi ondan xəbər verir ki, Paşinyanda da məlumatlar var. Belə ki, Rusiya onun hakimiyyətdən getməsi üçün digər yollara əl atmağı hədəfləyib.



Paşinyan 2026-cı il seçkilərinə qatılacaq. Həmin seçkilərə qədər ciddi şəkildə Cənubi Qafqazdakı proseslərə, müdaxilələrə şahidlik edəcəyik. Bu artıq ”ölüm-dirim” mübarizəsi də sayıla bilər. Çünki Rusiya-Ukrayna arasında davam edən müharibə, müharibədən sonra status-kvonun saxlanılması ilə mübahisəli məsələlərin dondurulması diqqəti Cənubi Qafqaza, Azərbaycana və Ermənistana yönəldəcək. Sözsüz ki, burada ABŞ-nin Cənubi Qafqazla bağlı siyasətinin nə qədər davamlı olub-olmaması məsələsi də gündəmdə olacaq. Həmçinin, Rusiya və ABŞ-nin Ermənistan və ümumilikdə Cənubi Qafqazla bağlı hansı qərarlar verməsindən də asılı olacaq. Bir məsələni Paşinyan əminliklə bilir ki, onun təhlükəsizliyi birbaşa olaraq Türkiyə və Azərbaycandan asılıdır. Nə ABŞ, nə Rusiya, nə də digər üçüncü qüvvə bu təhlükəsizliyə qarant ola bilməz. Ümumiyyətlə, Ermənistanın gələcəyi Türkiyə və Azərbaycanla bağlı apardığı siyasətdən asılı olacaq.

***Anar Kəlbiyev***

# Teymur Musayev səhiyyəyə nəzarəti itirib

## Azərbaycan səhiyyəsi qalmaqallar burulğanında - Yeni nazir özündən əvvəlkinin yolu ilə gedir

***Az qala elə bir gün yoxdur ki, ölkə səhiyyəsi ilə bağlı hər hansı qalmaqala şahidlik etməyək. Son olaraq öncə Beyləqan rayon Mərkəzi Xəstəxanasının poliklinika müdiri Fəxrəddin Quliyevin iş vaxtı otağında çəkilən əxlaqsız görüntülər, ardınca da Qusar rayon Mərkəzi Xəstəxanasındakı özbaşınalıqlar barədə sərt ittihamlarla dolu şikayət səhiyyə sahəsində hələ sabiq nazir Oqtay Şirəliyevin zamanından yığılıb qalan problemlərin nəinki aradan qaldırılmadığını, hətta daha da ağırlaşdığını göstərir.***

Beyləqandakı Mərkəzi Xəstəxananın şöbə müdiri ilə bağlı



kadrların hər hansı şərhə ehtiyacı yoxdur. Bu adı çəkilən tibb müəssisəsindəki mənəvi çöküşün bariz nümunəsidir. Qusardakı Mərkəzi Xəstəxananın keçmiş əməkdaşlarının şikayətindəki iddialar isə ağlasığmazdır. Şikayət müəlliflərinin yazdığına görə, xəstəxananın direktoru Kamil Hacıyev və onun xəstəxanada aptek bölməsinin "provizor"u işləyən həyat yoldaşı İlhamə Hacıyevaya elə bir vəziyyət yaradıblar ki, əməkdaşlar onların zülmündən canlarını qurtarmaq üçün işdən çıxırlar. Sitat: "K.Hacıyev qeydiyyat şöbəsinə öz yaxın adamı Sevinci rəhbər qoyub. Onun vasitəsi ilə ginekoloq Milana Babayevaya limit qoyub, ona müraciət edən xəstələri alıb doğum evinin şöbə müdiri, ginekoloq Kamilla Qurbanovaya göndərir. Çünki Kamilla Qurbanova ilə əl-ələ verib işləyirlər, bir xəstəni də 600 manata əməliyyat edirlər. Eləcə də köhnə, vaxtı keçmiş dərmanları xəstəxananın şöbələrinə paylayırlar. Rayonda olan dializ xəstələrinə verilməli olan "Albumin" dərmanlarını sənəddə guya "verildi" kimi rəsmiləşdirsələr də, faktiki olaraq bu dərmanlar həmin xəstələrə verilmir. Çünki bu dərmanın birinin qiyməti təxminən 50-170 manat həddindədir və bu dərmanları sonra məqsədli şəkildə satırlar". O da bildirilir ki, Qusar Rayon Mərkəzi Xəstəxanasının baş direktoru Kamil Hacıyev ötən il 20 min manat məbləğində cərimələnib. Belə ki, məhkəmə Baş direktor Kamil Hacıyev və həyat yoldaşı İlhamə Hacıyevanın qanunsuz hərəkətləri barədə müraciətlər əsasında araşdırma aparıb. İnzibati Xətalar Məcəlləsinin 192.1 maddəsilə Kamil Hacıyev barəsində məsuliyyət nəzərdə tutulub. Qarşı tərəf bu və şikayət məktubundakı digər ağır ittihamlara hələ ki, münasibət bildirməyib.

Əsas məsələ odur ki, ayrı-ayrı tibb müəssisələri ilə bağlı şikayətlər artıq ənənə halını alıb. Halbuki Oqtay Şirəliyev səhiyyə naziri vəzifəsindən azad edilərkən cəmiyyətdə böyük bir ümid yaranmışdı, hamı gözləyirdi ki, Səhiyyə Nazirliyinin (SN) yeni rəhbərliyi ciddi islahatlar aparmaqla bu sahədə uzun illərdən bəri yığılan problemlərin köklü həllinə nail olacaq. Düzdür, çatışmazlıqların baş verdiyi xəstəxanaların bir çoxu sözügedən nazirliyin tabeliyində deyil. Lakin unutmayaq ki, Səhiyyə Nazirliyinin əsasnaməsində açıq şəkildə göstərilib ki, əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır!

Lakin Şirəliyevin xələfi olan Teymur Musayevin nazir təyinatından sonra biz səhiyyə sahəsindəki problemlərə nazirliyin ənənəvi reaksiyasının şahidi oluruq. Hansısa tibb müəssisəsində bir özbaşınalıq, bir qanunsuzluq olur, ya həmin xəstəxananın tabeliyində olmadığını əsas gətirərək yaxasını kənara çəkməyə çalışır, ya da ümumi, mücərrəd, təyinatsız sözlərlə işin üstünü örtmək, malalamaq yolu tutur. Sual yaranır: Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdırsa, bu sahədəki xoşagəlməzliklərə ilk cavabdeh də elə o olmalı deyilmi?!

Teymur müəllim nazir vəzifəsinə gətirilərkən gözləntilər nə idi?

Mütəxəssislər deyirdilər ki, səhiyyə sistemində ciddi islahatlar başlamalı və qısa müddətdə sona çatdırılmalıdır, əks halda bu sistemi müasir standartlara tam uyğunlaşdırmaq, nəticə etibarilə yüksək və ardıcıl uğurlar qazanmaq mümkün olmayacaq. O da bildirilirdi ki, səhiyyəni elə bir duruma gətirmək lazımdır, regionlarla mərkəz arasında səviyyə fərqi minimuma ensin, hər xırda əməliyyatdan ötrü insanlar bölgələrdən Bakıya üz tutmasın.

Ekspertlərin fikrincə, Teymur Musayevin qarşısında mühüm vəzifələr dayanır: səhiyyə vahid sistemə çevrilməli, bu sahədə şəffaflıq təmin edilməli, icbari tibbi sığortanın daha uğurlu tətbiqi reallaşdırılmalı, kadr hazırlığının səviyyəsi artırılmalı, əhalinin tibbi xidmətlərə əlçatanlığı yaxşılaşdırılmalı, Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi tibbi standartlar paketinin hazırlanıb tətbiqi sürətləndirilməli və s. və i.a.

Lakin Teymur müəllimin təyinatının üzərindən illər keçib, yuxarıda sadalanan vəzifələrdən hansınınsa effektiv yerinə yetirildiyini söyləmək mümkün deyil, əvəzində isə biz hələ də Oqtay Şirəliyevin zamanındakı problemlərin daha da ağırlaşaraq davam etdiyini görürük. Və ən pisi odur ki, Musayevin məsul olduğu sahəyə nəzarəti itirdiyi aydın sezilir - əks təqdirdə az qala hər gün, hər həftə ölkə səhiyyəsi ilə bağlı bir qalmaqalın şahidinə çevrilməzdik.

Nəticə etibarilə isə insanlar haqlı olaraq soruşurlar: yeni nazir də özündən əvvəlki kimi işləyəcəkdisə, illərin problemlərini həll etmək əvəzinə onları daha da dərinləşdirəcəkdisə Şirəliyevin isti yerini soyuq eləməyə, onu kreslosundan qaldırmağa dəyərdimi?!

***Toğrul Əliyev***



# Mirsaleh Seyidov müşavirə keçirdi - Tapşırıqlar verdi

***Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidovun rəhbərliyi ilə 2025-ci ilin birinci yarımilinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.***

Bu barədə "Unikal"a Penitensiar Xidmətdən məlumat verilib. Müşavirədə açılış nitqi ilə çıxış edən nazir müavini bildirib ki, ədliyyə naziri III dərəcəli dövlət ədliyyə müşaviri Fərid Əhmədovun tapşırıq və tövsiyələrinə əsasən ötən dövrdə qanunçuluğun möhkəmləndirilməsi, fəaliyyətdə şəffaflığın artırılması və nizam-intizamın gücləndirilməsi, o cümlədən infrastrukturun yenilənməsi, məhkum və həbs edilmiş şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması, peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilib.

Daha sonra Penitensiar xidmətin rəis müavini ədliyyə general-mayoru Oqtay Məmmədov hesabat dövrü ərzindəki fəaliyyətin yekunlarına dair məruzə ilə çıxış edib, tabe qurumların rəhbərlərinin məruzələri dinlənilib.

Əməliyyat müşavirəsinə yekun vuran nazir müavini məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının təmini, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına riayət olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə dair mühüm tapşırıqlar verib.

# Kamran Əliyev bu xanımlara vəzifə verdi

***Baş prokuror əmrlər imzalayıb. Baş Prokurorluqdan "Unikal"a bildirilib ki, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən, Bakı şəhəri Səbail rayon prokurorunun köməkçisi Leyla Kərimovaya Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Sabunçu rayon məhkəməsi üzrə) vəzifəsinin icrası həvalə edilib.***

2014-cü ildə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa qəbul olunan Leyla Kərimova əvvəllər Xocalı və Qubadlı rayon prokurorunun köməkçisi, Xocavənd rayon prokurorluğunun müstəntiqi vəzifələrində işləyib.

Baş prokurorun digər əmrilə Bakı şəhər prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin prokuroru Ləman Səmədzadə Eldarlıya Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Xətai rayon məhkəməsi üzrə) vəzifəsinin icrası həvalə edilib.

# Dövlət əleyhinə açıq çağırışlar etməkdə təqsirləndirilən şəxs hakim qarşısına çıxarıldı

***Dövlət əleyhinə açıq çağırışlar etməkdə təqsirləndirilən Mirədalət Talışxanovun barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Elmir Rüstəmovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənin anket məlumatları dəqiqləşdirilib.

Müdafiə tərəfi onun barəsində seçilmis həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə vəsatət təqdim etsə də, məhkəmə əsas olmadığından təmin etməyib.

Cinayət işinin məhkəmə istintaqına verilməsi ilə bağlı qərar qəbul edilib.

Məhkəmənin baxış iclası iyulun 30-na təyin edilib.

Qeyd edək ki, təqsirləndirilənə qarşı DTX tərəfindən AR Cinayət Məcəlləsinin 32.4, 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar etməyə təhrik etmə, eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə ittiham irəli sürülüb. Onun əvvəllər hüquq-mühafizə orqanlarında çalışması məlumdur.

***Seymur Əli***

26_27 IYUI-QARA.qxd 7/17/2025 10:37 PM Page 9



# Üç prokurorluq əməkdaşı işdən çıxarılıb



***Bu ilin altı ayında Bakı şəhərinin prokurorluq əməkdaşları tərəfindən xidməti, icra və əmək intizamı qaydalarına riayət olunmasına ciddi nəzarət edilməklə, Bakı şəhər prokurorluq orqanlarının 3 əməkdaşının intizam tənbeh tədbiri qismində tutduqları vəzifədən azad olunub.***

”Unikal” xəbər verir ki, bu barədə Bakı şəhər prokurorluğu orqanları tərəfindən 2025-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsində bildirilib.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları hesabat məruzə ilə çıxış edərək, görülən işlərin vəziyyəti barədə məlumat vermiş, yol verilmiş nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildiriliblər.

# Növbəti köç karvanı Kəngərliyə çatıb, açarlar təqdim edilib



***Köç karvanı Ağdam rayonunun Kəngərli kəndinə çatıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, iyulun 17-də doğma yurduna yola salınan köç karvanı Ağdam rayonunun Kəngərli kəndinə çatıb.***

Bu mərhələdə köçürülən 176 nəfərdən ibarət 43 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.

# Bakıda bu ilin altı ayı üzrə 7 min 549 cinayət qeydə alınıb



***2025-ci ilin birinci yarımilii ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 7 min 549 törədilmiş cinayət hadisəsi qeydiyyata alınıb.***

”Unikal” xəbər verir ki, bu barədə Bakı şəhər prokurorluğunun 2025-ci ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsində deyilib.

Bildirilib ki, qeydə alınan cinayətlərin 92,6 %-nin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2025-ci ilin birinci yarımilində törədilən 12 qəsdən adam öldürmə cinayətlərinin hamısının açılması təmin edilib.

Qəsdən adam öldürmə, özünü öldürmə həddinə çatdırma, oğurluq, mənimsəmə və israf etmə, dələduzluq, hədə-qorxu ilə tələb etmə, xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayətlər, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı azalıb, qəsdən adam öldürməyə cəhd, qəsdən sağlamlığa ağır və az ağır zərər vurma, adam oğurluğu, quldurluq, ekoloji cinayətlərin sayında isə artım müşahidə olunub.

# Cahangir Əsgərova 29 milyon manatlıq şok

## Şirkətlər AZAL-ın sabiq şefinə inanmırlar, yoxsa onun bankına? - İlginc rəqəmlərin pərdəarxası!



***Yola salmaq üzrə olduğumuz həftə ”Premium Bank” 2025-ci ilin ilk yarısı üzrə maliyyə vəziyyətini açıqlayıb. Və açıqlanan rəqəmlərdən belə məlum olub ki, bankın xalis mənfəəti ötən ilin eyni dövrü ilə müqayisədə 11,2% artaraq 6,3 mln. manat təşkil edib. Amma...***

Amma ortada diqqət çəkən nüanslar da var. Məsələn, qeyri-faiz xərcləri - o cümlədən əmək haqqı, inzibati və digər xərclər - 13,4 mln. manata yüksəlib. Bu, xalis mənfəətdə artıma baxmayaraq, bankın rentabellik göstəricilərinə potensial təzyiqlərin artdığını göstərir. Ümumilikdə əməliyyat mənfəəti 18% artaraq 6,6 mln. manat olub. Başqa sözlə, əməliyyat mənfəəti xalis mənfəətdən cəmi 300 min manat yüksək olub. Bu isə bankın mənfəətinin əsasən fəaliyyət gəlirləri ilə formalaşdığını göstərir.

Bankın aktivləri ilin əvvəlindən 1,1% artaraq 648,2 mln. manata çatıb. Bu artım əsasən müştərilərə verilmiş kreditlərin genişlənməsi ilə bağlı olub - kredit portfeli 1,9% artaraq 475,5 mln. manat təşkil edib. Həmçinin, bankın ümumi depozit portfeli 3,6% artaraq 368,2 mln. manata yüksəlib. Bu artım yalnız fiziki şəxslərin əmanətləri hesabına mümkün olub. Belə ki, əhalinin depozitləri 6,7% artaraq 311,6 mln. manata çatıb. Əvəzində, hüquqi şəxslərin depozit portfelində 34% azalma müşahidə edilib. Şirkətlər 29,1 mln. manat vəsaiti bankdan geri çəkib. Nəticədə sözügedən portfel 85,7 mln. manatdan 56,6 mln manata enib.

Daha bir maraqlı məqam: hesabat dövründə bankın nağd pul vəsaitləri və ekvivalentləri 6,7% azalaraq 154,2 mln. manata düşüb. Bunun əksinə olaraq, ticarət və investisiya qiymətli kağızlarına yatırımlar 10 dəfədən çox artaraq 1 mln. manatdan 10,8 mln. manata yüksəlib. Bu da bankın likvid vəsaitlərinin strukturunda mühüm dəyişiklik olduğunu göstərir.

Diqqətçəkən məqamlardan biri isə odur ki, bankın kapital artımı dividendlərin azaldılması bahasına baş verib. Daha dəqiq desək: bankın ümumi kapitalı 9% artaraq 193,9 mln. manata çatıb. Artım əsasən səhmdar kapitalının 20 mln manat artırılması ilə bağlıdır. Bununla belə, bölüşdürülməmiş mənfəətin 3,7 mln manat azalaraq 10,5 mln. manata enməsi bankın mənfəətin bölüşdürülməsində daha konservativ siyasətə keçdiyini göstərir.

Bir sözlə, adı çəkilən bankın 2025-ci ilin ilk yarısı üzrə maliyyə vəziyyətində bəzi rəqəmlər ilk baxışdan pozitiv görünsə də, ümumi durumun elə də nikbin olmadığı təəssüratı yaranır. Xüsusən şirkətlərin yarım ildə nə az, nə çox, düz 29 milyon manat depoziti geri çəkməsi, xalis mənfəətdə artıma baxmayaraq, bankın rentabellik göstəricilərinə potensial təzyiqlərin artması və s. düşündürücü detallardır. Onu da bildirək ki, bu ilin mayında “Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) keçmiş prezidenti Cahangir Əsgərov “Premium Bank” ASC-nin əsas səhmdarı olub. Səhmlər onun nəzarətinə həyat yoldaşı Zərifə Həmzəyeva bu il yanvarın 17-də vəfat etdikdən sonra keçib.

Həmzəyeva dünyasını dəyişənə qədər Bankın nizamnamə kapitalında 84,5 % paya malik olub. Səhmlərin 15,2 %-nə “VIP Aviation Services” MMC, 0,3 %-nə isə Elvira Əhmədova nəzarət edib.

Xatırladaq ki, “Premium Bank” 1993-cü ildə “AZAL Bank” adı ilə yaradılıb, 2008-ci ildə adını “Silk Vey Bank”a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib. 2024-cü ilin yekununda onun nizamnamə kapitalı 154,6 milyon manat təşkil edib. Bu ilin aprel ayında isə Bank nizamnamə kapitalını 20 milyon manat və yaxud 12,9 % artıraraq 174,6 milyon manata çatdırıb. Kapital artımından sonra kredit təşkilatının səhmdarlarının yeni pay bölgüsü açıqlanmayıb.

Bəzi ehtimallara görə, Zamirə xanımın vəfatından bir müddət sonra isə onun həyat yoldaşı Cahangir Əsgərovun əsas səhmdara çevrilməsindən sonra “Premium Bank” ASC-yə xüsusilə hüquqi şəxslərin, yeni şirkətlərin etimadında zəifləmə var. AZAL-a rəhbərlik etdiyi dövrdə adı davamlı şəkildə korrupsiya ittihamlarında və iddialarında hallanan, qeyri-şəffaf və hesabatlılıqdan uzaq fəaliyyəti ilə ölkə mediasının və ictimaiyyətinin ən çox tənqid etdiyi fiqurlardan olan Əsgərovun mənfi reputasiyası belə görünür ki, haqqında danışılan bankla bağlı müştərilərdə xeyli tərəddüdlərə yol açıb.

Maraq üçün deyək ki, bu ilin mayında Cahangir müəllimin ”Premium Bank”dan qazancı məlum olmuşdu. Həmin vaxt yerli KİV bildirirdi ki, bank 2024-cü il üzrə 7 milyon 56 min manat məbləğində dividend elan edib. Bu isə əvvəlki ilə nisbətən 30% azdır. Belə ki, bank 2023-cü il üzrə səhmdarlarına 10 milyon 120 min manat dividend ödəyib. Belədə aydınlaşır ki, bankın ödədiyi dividenddən Cahangir Hacıyevə çatan məbləğ 5 milyon 962 min manat təşkil edib.

Səhmlərin 15,2 %-i ”VIP Aviation Services” MMC-yə aid olduğu üçün 1 milyon 72,5 min manat dividend şirkətə ödənilib. 21,5 min manat dividend isə 0,3 %-lik payçı Elvira Əhmədovaya ödənilib.

***Toğrul Əliyev***

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 10



# Monopolistlərin bahalaşma oyunu ilə bağlı yeni faktlar

## Eyni məhsulu bizə Ermənistan və Gürcüstandan xeyli baha satırlar - Rəqəmlərin ifşası!

***Bu ilin ilk 5 ayında Azərbaycana xarici ölkələrdən 9 milyon 674 min dollar dəyərində 5 min 604,6 ton qarğıdalı yağı idxal olunub. Bu günlərdə "Yeni avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər verir ki, idxal olunan qarğıdalı yağının 1 kiloqramının orta gömrük dəyəri 1,7 dollar (2,9 manat) olub.***

Qeyd edək ki, qarğıdalı yağı Azərbaycana əsasən 3 ölkədən - Rusiya, Türkiyə və İtaliyadan gətirilir. Rusiyadan 5 ay ərzində 3 843,5 ton, Türkiyədən 1 549,2 ton, İtaliyadan isə 211,1 ton qarğıdalı yağı idxal edilib.

Bu ölkələrdən gətirilən qarğıdalı yağının bir kiloqramının orta gömrük dəyəri müvafiq olaraq 2,7 manat, 3,4 manat və 3,7 manat təşkil edib.

Onu da qeyd edək ki, ötən ay idxal olunan qarğıdalı yağlarının 1 kiloqramının orta satış qiyməti ölkənin pərakəndə ticarət şəbəkələrində 7,2 manat (1 litr 6,7 manat) olub.

Rəqəmlərdən də göründüyü kimi, qarğıdalı yağı marketlərdə ölkəyə gətirildiyi qiymətdən 2,5 dəfə baha satılır.

Məlumat üçün bildirək ki, qonşu ölkələrdə idxal qarğıdalı yağlarının qiyməti Azərbaycan ilə müqayisədə fərqli olub.

Məsələn, hazırda İtaliyadan gətirilən bir litrlik "Luglio" qarğıdalı yağı Azərbaycanda 9,59 manata (5,6 dollar) satılır.

Eyni məhsul, yəni bir litrlik "Luglio" qarğıdalı yağı Ermənistanın məşhur SAS supermarketində 4,7 dollara (1 790 dram), Gürcüstanın məşhur "Naturali" supermarketində isə 6,4 dollara (17,35 lari) satılır.

Bu arada başqa bir maraqlı faktı da xatırlatmaq yerinə düşər. Təzəlikcə məlum olmuşdu ki, cari ilin ilk 5 ayı ərzində Azərbaycana xarici ölkələrdən 1 352 ton marqarin gətirilib. Rəsmi məlumatlardan belə aydınlaşırdı ki, ötən ilin eyni dövrü ilə müqayisədə marqarin idxalı 52% və ya 460 ton artıb.

Qeyd edək ki, bu il idxal olunan marqarinin 1 kiloqramının orta gömrük dəyəri 1,45 dollar (2,46 manat) olub.

Marqarin Azərbaycana aşağıdakı ölkələrdən idxal edilib:

Rusiya - 1 304,66 ton (1 kq - 2,46 manat);

Qazaxıstan - 39,35 ton (2,44 manat);

Türkmənistan - 5 ton (2,04 manat);

Türkiyə - 3 ton (1,95 manat).

İlginc olan isə burasıdır ki, xaricdən 2,46 manata idxal edilən marqarinin 1 kiloqramının marketlərdə pərakəndə satış qiyməti 5,82 manat təşkil edir. Yəni ortada nə az, nə çox, düz iki dəfə fərq var!

Belə nümunələrin sayını xeyli artırmaq mümkündür.

Ortaya çıxan mənzərənin, yuxarıda göstərdiyimiz konkret faktların səbəbi isə şübhəsiz ki, idxaldakı monopolizmdir.

Mütəxəssislər də bildirirlər ki, ərzaq və kənd təsərrüfatı məhsullarının idxalı ilə bağlı monopolizm meylləri güclü olaraq qalır. Onların sözlərinə görə, birinci inhisar kənd təsərrüfatı məhsullarının ölkəyə gətirilməsində tətbiq edilən əngəllərdir. Digər inhisar yerlərdə istehsal olunan kənd təsərrüfatı məhsullarının bazarlara daxil olması zamanı yaradılan monopolist maneələrdir. "Əksər məhsul istehsalçıları məhsullarını paytaxtın istehlak bazarlarında birbaşa satmaq imkanına malik deyillər. Onlar istehsal etdikləri məhsulları aşağı qiymətə bazarda inhisarçı mövqeyə malik şəxslərə təhvil verirlər.



Nəticədə həmin məhsullar inhisarçılar tərəfindən daha yüksək qiymətə alıcılara təklif edilir. Bundan əlavə bazarlarda saxlama kameralarının, anbarların sayının az olması kənd təsərrüfatı istehsalçılarının özlərinin bazara məhsul gətirmək imkanlarını məhdudlaşdırır. İstehsalçılar məhsullarını topdansatış qiymətinə inhisarçılara verməyə məcbur olurlar" - iqtisadçı, deputat Vüqar Bayramov bir müddət əvvəl bildirmişdi.

Hər iki inhisar formasının bazarda qiymət artımlarına gətirib çıxardığını deyən iqtisadçı Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərini qonşu ölkələrlə müqayisə edərək bizdə qiymətlərin xeyli yüksək olduğunu söyləmişdi. Hətta Mərkəzi Şərqi Avropa ölkələri ilə müqayisədə Azərbaycanda bir sıra kənd təsərrüfatı məhsullarının qiymətləri olduqca yüksək hesab oluna bilər. Məsələn, mövsümdə gilas və gilanarın qiymətləri Mərkəzi Şərqi Avropa ölkələri, o cümlədən Rumıniya, Çexiya ilə müqayisədə 3 dəfəyə yaxın baha idi. Elə kənd təsərrüfatı məhsulları var ki, onların qiymətləri hətta Amerika Birləşmiş Ştatları ilə müqayisədə bahadır. Xüsusilə, giləmeyvələrin qiyməti Amerika ilə müqayisədə 2 dəfə bahadır".

Ekspert təkcə yerli istehsal məhsullarının deyil, idxal məhsullarının da qiymətinin yüksək olduğunu vurğulamışdı: "Regionda banan ən baha Azərbaycanda satılır. Böyük Britaniya ilə müqayisədə banan 3 dəfəyə yaxın bahadır. Rusiya ilə müqayisədə isə bu rəqəm 2,5 dəfə təşkil edir. Praktiki adıçəkilən məhsulların qiymətinin baha olması onların idxalındakı inhisarçılıqla bağlıdır".

Ekspertlər vurğulayırlar ki, inhisarçılıq bazarlarda qiymətlərin diqtə edilməsinə gətirib çıxarır. Halbuki monopolizm aradan qaldırıldığı təqdirdə ərzaq və kənd təsərrüfatı məhsullarının qiymətləri tez bir zamanda aşağı düşərdi. Hesablamalara görə, idxal ölkələrindəki qiymətlərin müqayisəsini və Azərbaycanda tətbiq edilən idxal rüsumlarını nəzərə alsaq inhisarçılığın ləğvi kənd təsərrüfatı məhsullarının qiymətlərini ən azı 2 dəfə ucuzlaşdırardı. Eyni zamanda monopolizmin aradan qaldırılması bazarda idxal məhsullarının qıtlığının aradan qalxmasına da şərtləndirə bilər. Həmçinin, əhalinin kənd təsərrüfatı və ərzaq məhsulları ilə təminatı yaxşılaşar, vətəndaşlarda öz vəsaitlərinə qənaət etmək imkanı yaranar, ona yığım fürsəti verər.

Lakin təəssüf ki, bu, hazırda real görünmür, çünki əksər hallarda məmur maraqlarından da qaynaqlanan monopolizm hələ də güclü olaraq qalır.

***Sənan Mirzə***



# Azərbaycanda 20-dən çox platforma operatoru 5000 manat cərimələnib

***İctimai iaşə obyektləri operatorlarla müqavilə bağlayanda həmin müqavilənin "HoReCa" sistemini, yəni otel, restoran, kafe və digər ictimai iaşə məkanlarını əhatə etməsinə əmin olmalıdırlar.***

Bu barədə Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev APA-nın sorğusuna cavab olaraq bildirib.

Onun sözlərinə görə, çünki operator hər hansı televiziya kanalını retranslyasiya edirsə, bu istiqamətdə hüquq əldə edibsə, adi qaydada bu son istifadəçilərə (abonentlərə) aid olur.

"İctimai iaşə obyektlərində retranslyasiya isə ayrıca müqavilə ilə tənzimlənir. Burada məsuliyyəti ictimai iaşə obyekti deyil, ona retranslyasiya xidmətini təqdim edən operator daşımalıdır, çünki müqavilə bağlananda operator həmin iaşə obyekti ilə həmin obyektin xarakterinə uyğun müqavilə bağlamalıdır", - Taleh Quliyev ictimai iaşə obyektlərində pirat yayım vasitəsilə futbol üzrə klublararası dünya çempionatının yayımlanmasına münasibət bildirərkən deyib.

Audiovizual Şuranın rəsmisi qeyd edib ki, Azərbaycan Respublikası ərazisində futbol üzrə klublararası dünya çempionatının yayımı həmin çempionatın yayımını müstəsna yayım hüququ ilə əldə etmiş yayımçılar tərəfindən həyata keçirilirdi. Belə ki, ictimai iaşə obyektlərində bu çempionatın yayımı həmin ictimai iaşə obyekti ilə Audiovizual Şura tərəfindən lisenziya verilmiş platforma operatoru arasında bağlanmış müqaviləyə uyğun olaraq həmin operator tərəfindən retranslyasiya edilə bilərdi: "Əgər hər hansı ictimai iaşə obyekti Audiovizual Şura tərəfindən verilmiş lisenziyaya malik olmayan platforma operatoru ilə müqavilə bağlamadan retranslyasiya xidmətini özü təşkil edirsə, bu halda qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda belə lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa - görə Audiovizual Şura tərəfindən aidiyyəti qurumlara müraciət olunur".

Taleh Quliyev diqqətə çatdırıb ki, pirat yayımlara qarşı mübarizə sahəsində son illər Audiovizual Şura tərəfindən mühüm addımlar atılmaqdadır: "İlk növbədə xaricdən internet üzərindən yerli bazara daxil olan operatorlara qarşı aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər görülüb və 20-ə yaxın xarici operatorun internet informasiya ehtiyatlarına müraciəti məhkəmə qərarı ilə məhdudlaşdırılıb".

Taleh Quliyev onu da qeyd edib ki, Audiovizual Şuradan lisenziya alaraq fəaliyyət göstərən operatorların paketlərində həmin operatorun retranslyasiya etməyə hüququ olmayan televiziya kanallarının yayımlanmasının qarşısının alınması istiqamətində də zəruri işlər aparılır.

Növbəli şəkildə aparılan monitorinqlər nəticəsində 20-dən çox platforma operatoruna "Media haqqında" Qanunun 32.4-cü maddəsinin tələbinin (Platforma operatoru onunla xarici audiovizual yayımçı və ya onun adından müqavilə bağlamaq səlahiyyəti olan şəxs arasında xarici audiovizual yayımçıların proqramlarının retranslyasiyasına dair bağlanmış müqavilənin surətini Şuraya təqdim etməlidir) pozulması faktına görə barəsində inzibati xəta haqqında protokollar tərtib olunaraq müvafiq rayon (şəhər) məhkəmələrinə təqdim olunub, məhkəmələr tərəfindən həmin operatorların hər biri 5000 manat məbləğində cərimə edilib. Hazırda da bu proses davam edir. Son 1 ayda daha 3 operator barəsində inzibati xəta haqqında protokollar tərtib olunaraq müvafiq rayon (şəhər) məhkəmələrinə təqdim olunub.

26_27 IYUI-QARA.qxd 7/17/2025 10:37 PM Page 11





## Bu şəxslər üçün ixtisas imtahanı keçirildi

***Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 17-də qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanı keçirib.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahanda 161 nəfər iştirak edib. İmtahanın nəticələrinə əsasən, müxtəlif istiqamətlər üzrə ümumilikdə 46 namizəd tələb olunan şərtləri ödəyərək uğur qazanıb.

İmtahandan müvəffəqiyyətlə keçmiş namizədlərə imtahanda iştirak etdiyi qiymətləndirmə fəaliyyəti istiqaməti üzrə müvafiq şəhadətnamə təqdim edilir.

İxtisas imtahanından keçməyən şəxslərin qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün keçirilən imtahanlarda təkrar iştirak etmək hüququ var.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyası iyulun 21-22-də saat 14:00-dan 17:00-dək DİM-in əsas inzibati binasında fəaliyyət göstərəcək. Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, akademik Həsən Əliyev küçəsi, 299

## 52 məzun qızıl və gümüş nişana layiq görülüb

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin XI sinif məzunlarından 42-si qızıl, 10-u gümüş nişana layiq görülüb.***



BŞTİ-dən "Unikal"a bildirilib ki, elm və təhsil nazirinin müvafiq əmrinə əsasən, paytaxt üzrə 13, 45, 53, 60 (2 nəfər), 129, 180 (2 nəfər), 194, 204 (2 nəfər), 218, 234, 259, 263, 269, 272, 275 (2 nəfər), 283 (2 nəfər), 297, 314 nömrəli tam orta məktəblərin, 70, 83 və 264 nömrəli məktəb-liseylərin, 291 nömrəli Ekologiya liseyi, Humanitar fənlər təmayüllü məktəb-lisey (5 nəfər), 220 nömrəli məktəb-lisey (3 nəfər), 2 nömrəli texniki-humanitar lisey, Texniki-humanitar lisey və 287 nömrəli "Zəkalar" liseyinin (5 nəfər) məzunları qızıl nişanla təltif edilib.

Həmçinin 47, 274 nömrəli tam orta məktəblər, 83, 166 nömrəli məktəb-liseylər, "Ankara məktəbi" məktəb-lisey (3 nəfər), "Tərəqqi" texniki-humanitar lisey (2 nəfər), Humanitar fənlər təmayüllü məktəb-liseyin məzunları isə gümüş nişanla təltif olunub.

Qeyd edək ki, qızıl və gümüş nişana layiq görülən məzunlar Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuş "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma Qaydası"na əsasən müəyyənləşdirilir.

# Azərbaycanın milyonlarla manat borcu olan məmur şirkətləri

## Hətta "tender kralı" olan bəzi MMC-lər belə borc bataqlığında çabalayır - Sirri nədir?

***Son vaxtlar Azərbaycanda bir sıra şirkətlərin külli miqdarda vergi borclarının olması barədə xəbərlər adi hala çevrilib. Maraqlı orasıdır ki, belə MMC-lər arasında ölkədə yetərincə tanınan, müxtəlif dövlət qurumlarının keçirdiyi tenderlərdə mütəmadi qalib olan, yaxud qalib elan edilən şirkətlər də az deyil.***

Məsələn, bir müddət əvvəl məşhur tikinti-quraşdırma şirkəti "ABC-2010" MMC-nin külli miqdarda borca düşdüyü üzə çıxmışdı. İqtisadiyyat.az-ın əldə etdiyi məlumata görə, şirkətin dövlət qarşısında vergi borcu 463 387 manat, yəni hardasa yarım milyon manat təşkil edir.

Qeyd edək ki, Azərbaycan inşaat bazarında yer alan "ABC-2010" telekommunikasiya obyektlərinin layihələndirilməsi, dizayn və tikintisi, hündürlükdə işlər, telekommunikasiya obyektlərinin tikintisi və xüsusi təyinatlı obyektlərin tikintisi, elektrik təchizat qurğularının quraşdırılması, fiber optik və internet xəttlərinin çəkilişi üzrə fəaliyyət göstərir. 2009-cu ildə təsis edilən şirkətin nizamnamə kapitalı 871000 manat, qanuni təmsilçisi isə Adıgözəlov Azər Adışirin oğludur.



"Naviqator Mobil Servises" şirkətinin isə xüsusilə külli miqdarda vergi borcu var. Həmin borc nə az, nə çox, düz 1 626 634,5 manat təşkil edir.

"Naviqator Mobil Servises" şirkəti 2010-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 5 manatdır. Şirkətin qanuni təmsilçisi Hacıyeva Cəmilə Həsən qızıdır. Açıq mənbələrdə şirkət haqqında heç bir məlumat yoxdur.

İki ay əvvəl isə "Vedi Construction" şirkətinin külli miqdarda vergi borcunun olduğu barədə xəbər yayılmışdı. Valyuta.az-ın məlumatına görə, şirkətin həmin borcu 813 523,34 manat təşkil edir. "Vedi Construction" şirkəti 20 manatlıq nizamnamə kapitalı ilə yaradılıb. Hazırda şirkətin nizamnamə kapitalı 500 manatdır.

"Vedi Construction" şirkətinin qanuni təmsilçisi Əliyev Emin Eldar oğludur. "Vedi Construction" şirkəti dövlət satınalmalarında fəal iştirak edib və yerli mediada ondan "tender kralı" kimi bəhs olunub. 2024-cü ilin noyabr ayından şirkətə dövlət satınalmalarında iştirakla bağlı qadağa tətbiq edilib. Qadağa "Vedi Construction" şirkətinin etibarsız təchizatçıların siyahıya salınması ilə əlaqədardır.

Başqa bir tanınmış MMC-nin - "Mətbəx Aləmi" şirkətinin də vergi borcu 1 milyon manatdan xeyli çoxdur. Həmin borcun hazırda 1 333 394,77 manat təşkil etdiyi bildirilir.

"Mətbəx Aləmi" şirkəti 2018-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 manatdır. Şirkətin qanuni təmsilçisi Ağakişiyev Elşən Allahverdi oğludur.

"General Stone" şirkətinin də xüsusilə külli miqdarda vergi borcu yaranıb. Bu MMC-nin sözügedən borcu hazırda 749 815,78 manat təşkil edir.

Qeyd edək ki, "General Stone" şirkəti 2022-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 manatdır. Şirkətin qanuni təmsilçisi Əliyev Rüfət Məmməd oğludur.

Bir müddət öncə isə milyonlarla manat vergi borcu olan şirkətlər ləğv olunduğu xəbəri yayılmışdı. Həmin xəbərə görə, bunlar "ALTİS" və "KOMETA-A" şirkətləri idi. Hər iki MMC "Azlayihə İnşaat" şirkətinə qoşularaq ləğv olunduğunu elan edib.

Məlumat üçün bildirək ki, "ALTİS" şirkətinin hazırda 3 517 315,86 manat, "KOMETA-A" şirkətinin isə 1 312 046,04 manat vergi borcu var.

Bundan əlavə, həmin şirkətlərin qoşulduğu "Azlayihə İnşaat" MMC-nin də dövlət qarşısında yığılmış külli miqdarda vergi borcu mövcuddur. Onun vergi borcunun miqdarı 6 142 328,10 manat təşkil edir.

Qeyd edək ki, ləğv olunan şirkətlər 2009-cu ildə dövlət qeydiyyatına alınıb. "ALTİS"in qanuni təmsilçisi Mahmudov Cavid Fuad oğlu, "KOMETA-A"nın qanuni təmsilçisi isə Eyvazov Samran Tahir oğludur.

2012-ci ildə dövlət qeydiyyatına alınan "Azlayihə İnşaat"ın isə qanuni təmsilçisi Hüsyenov Talıb Sabir oğludur.

Qalmaqallı tikinti şirkəti olan "ALFA LTD" şirkətinin rəhbəri İxtiyar Həsənovun dövlətə milyonlarla vergi borcu yaranıb. Qaynarinfo-nun mayda yaydığı məlumata görə, şirkətin Dövlət Vergi Xidmətinin 6 saylı Ərazi Vergilər Baş İdarəsinə 3.784.124,21 AZN vergi borcu var.

Nizamnamə kapitalı 40 manat olan şirkətin qanuni təmsilçisi İxtiyar Həsənov Zakir oğludur.

Qeyd edək ki, "ALFA LTD" şirkətinin rəhbəri İxtiyar Həsənovun adı Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Əziz Əbdüləziz ilə hallanırdı. Həmin cinayət işində 2022-ci ildə vəfat edən Azərbaycan televiziyasının rejissoru, ssenari müəllifi Arif Qazıyevin də adı şahid qismində keçib. A. Qazıyev iş adamı ilə Əziz Əbdüləzizi tanış edib. Təqsirləndirilən şəxs tender udmaq, xaricdən plastik boruları alıb gətirmək adı ilə İxtiyar Həsənovdan 300 min manat məbləğində pul alaraq mənimsəmişdi.

Bu ayın əvvəllərində isə məşhur şirkətlər qrupu vergi bataqlığından çıxıb, milyonlarla manat borcunu ödəyib. Belə ki, "ATEF Şirkətlər Qrupu" yığılmış külli miqdarda vergi borcunu ödəməyə məcbur edilib.

Məlumata görə, şirkətin Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinə hazırda cəmi 1500 manata yaxın vergi borcu mövcuddur. Cari ilin mayında şirkətin dövlət qarşısındakı borcu 186,5 min manat idi. Ötən il isə şirkətin vergi borcu 1,5 milyon manata çatmışdı. 2021-ci ildə MMC-nin vergi borcu 6 milyon, 2023-cü ildə 11 milyon manat olub.

Qeyd edək ki, "ATEF Şirkətlər Qrupu" enerji sənayesi üçün elektrik avadanlıqlarının istehsalı və quraşdırılması ilə məşğuldur. Nizamnamə kapitalı 33 892 585 manat olan şirkətin rəhbəri Talıb Əlixanbəyovdur, qanuni təmsilçisi isə onun oğlu Emil Əlixanbəyovdur.

Bir sözlə, Azərbaycanda külli və ya xüsusilə külli miqdarda vergi borcu olan şirkətlərin siyahısı xeyli uzundur. Həmin şirkətlərdən bir çoxunun müəyyən məmurların birbaşa və ya dolayı himayəsində olduğunu, yaxud mütəmadi tender udduqlarını, az qala "tender kralı"na çevrildiklərini dövlət layihələrində iştirak etiklərini nəzərə aldıqda milyonlarla manatlıq vergi borclarının necə yarandığı maraq doğurur. Böyük ehtimalla başlıca səbəblər arasında onların öz nüfuzlu himayədarlarına arxayınlığı da dayanır.

***Toğrul Əliyev***

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 12



**5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 150 illik şərəfli və tarixi yol...

## Rəşad Məcid: "Prezidentin mətbuat qarşısında qoyduğu ideya və tələblər bizim çiynimizə böyük məsuliyyət qoyur"



***Azərbaycan mətbuatının 150 illik yubileyinə sayılı günlər qalıb. 150 illik şərəfli tarixi yol keçən Azərbaycan milli mətbuatının əsası 1875-ci ildə "Əkinçi" qəzetinin nəşri ilə qoyulub. Həmin vaxtdan indiyədək mətbuatımız cəmiyyətimizin maariflənməsində, milli kimliyimizin formalaşmasında, söz azadlığının təmin olunmasında misilsiz rol oynayıb.***

"Əkinçi" qəzeti ilə yola çıxan mətbuatımız Azərbaycanda müstəqil, demokratik mətbuatın təməlini formalaşdırdı. Media üçün azad söz mühitinin yaradılması, məlumat azadlığının olması hər dövr üçün xüsusi əhəmiyyət kəsb edir. Bu mənada ölkəmizdə mətbuatın inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub.Ümummilli Lider Heydər Əliyev hər zaman ölkəmizdə media orqanlarının sərbəst fəaliyyəti, jurnalistlərin söz və fikir azadlığının təmin edilməsi, mətbuat problemlərinin həlli istiqamətində təşəbbüs göstərib, mühüm qərarlar qəbul edib. Ulu Öndər mətbuatımızın inkişafı yönündə 10-dan çox sərəncam və fərman imzalayıb. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbul edilməsi, eləcə də 1998-ci ildə Azərbaycanda senzuranın ləğv olunması ilə bağlı Sərəncamın imzalanması Heydər Əliyevin mətbuatımızın tərəqqisi üçün ən böyük töhfələrindən hesab edilə bilər. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin bu sahədə fəaliyyətini uğurla davam etdirir. Prezident tərəfindən Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncam" imzalanıb. Sərəncamda milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq milli mətbuatımızın 150 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması qərara alınıb. Artıq bu məqsədlə çoxsaylı tədbirlər keçirilir, Milli Mətbuatın 150 illiyi bayram ovqatında qeyd olunur. Sözügedən sənəd dövlətimizin başçısının Azərbaycan mətbuatına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bu gün ölkəmizdə azad sözə dəstək üçün jurnalist təşkilatları da fəaliyyət göstərir. Jurnalistlərin bir növ hamisinə çevrilmiş, onların hüquqlarının qorunmasında, peşəkarlığının artırılmasında, söz, fikir və məlumat azadlığına daha geniş imkanlar yaradılmasında müstəsna rol oynayan Azərbaycan Mətbuat Şurasının da böyük xidmətləri var.

Şura media vasitələrinin fəaliyyət sahələrində baş verən münaqişələrin məhkəməyəqədər həlli variantlarının araşdırılmasında jurnalistlərə böyük dəstək göstərir. Elə mətbuatın 150 illiyi ərəfəsində də müsahibimizin Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin olması təsadüfi deyil. Daim gənc jurnalistlərə dəstəyi, onların peşəkar jurnalist kimi yetişməsində böyük əməyi və xidmətləri olan, ən əsası isə jurnalistlər tərəfindən sevilən Rəşad müəllimin bayram ərəfəsi sinəsi dolu idi. Rəşad Məcid milli mətbuatın 150 illiyi ilə bağlı "Unikal" qəzetinə bildirib ki, Azərbaycan prezidentinin 25 aprel 2025 tarixində "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncam"ından gətirdiyi bu sitat da təsadüfi deyil: "Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklərlə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

"Elə bilirəm ki, bu cümlələr mediamızın gələcəyi və informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə müasir tendensiyalara yiyələnməsi üçün ən müdrik tövsiyyələrdir. Biz cənab prezidentin tövsiyyələrinə mediamızın əməl edəcəyini, bu istiqamətdə inkişaf edəcəyini arzulayırıq. Buna əminik ki, şərəfli tarixi yol keçmiş Azərbaycan mətbuatı qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsini təmin edəcək. Bu sərəncamda Azərbaycan tarixinin şərəfli tarixinə nəzər salınır, milli mətbuatımızın maarifçilik missiyası təqdir olunur və eyni zamanda Ulu Öndər Heydər Əliyevin mətbuata qayğısı əks olunur. 44 günlük Vətən müharibəsində mətbuatın əzmkarlığı, dezinformasiyaya qarşı birgə fəal reaksiyaları qeyd olunub. Bu qiymətə görə, cənab prezidentə jurnalistlər adından təşəkkür edirəm. Bu ərəfədə dövlət qurumları da sərəncamdan irəli gələrək milli mətbuatımızın 150 illiyinin bir bayrama çevrilməsi üçün fəallıq nümayiş etdirirlər. Hesab edirəm ki, bu, mətbuatımız və jurnalistlər üçün bir məsuliyyətdir. Prezidentin mətbuat qarşısında qoyduğu ideya və tələblər çiynimizə böyük məsuliyyət qoyur. Prezidentimiz 2013-cü ilin mayında Ümumilli lider Heydər Əliyevin 100 illik yubileyində çıxışında qeyd etdi ki, bizim zəfərimiz bizə böyük məsuliyyət qoyur. Biz hamımız bu zəfərə layiq olmalıyıq. Bu həm də jurnalistlər üçün də bir məsuliyyətdir. Jurnalistlər dövlət maraqlarını üstün tutmaqla fəallıq göstərməli, bu məsuliyyəti heç vaxt unutmamalıdırlar. Jurnalistlərə bu şərəfli yolda uğurlar arzulayır, bayramlarını təbrik edirəm", - deyə Rəşad Məcid bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Ermənistanın əsirliyində olmuş azərbaycanlı: "İşgəncələrə məruz qalırdım, döyülürdüm"

***İyulun 17-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində ifadə verən zərərçəkmiş şəxs İdris Məmmədov 1993-cü ilin fevral ayında döyüşlər zamanı əsir götürüldüyünü söyləyib.***

"Unikal" xəbər verir ki, o, Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində, o cümlədən evlərdən birinin zirzəmisində, Xankəndidə, Şuşa həbsxanasında saxlanıldığını deyib. Əlavə edib ki, əsirlikdə saxlanılan zaman işgəncələrə məruz qalıb, dəyənəklə, yumruq və təpiklə döyülüb. Əsirlikdə olduğu üç ay müddətində az miqdarda çörək və su verilib.

Zərərçəkmiş Maarif Rüstəmov ifadəsində 2020-ci ildə baş vermiş 44 günlük müharibədə iştirakı zamanı ağır yaralandığını söyləyib. O, hadisənin sentyabrın 27-də Kəlbəcər rayonu istiqamətində, Murovdoğda baş verdiyini bildirib. Deyib ki, həmin vaxt özündən başqa daha 2 nəfər yaralanıb, 4 nəfər şəhid olub.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

## Rus bölməsi üzrə uşaqların I sinfə qəbuluna başlanılır

***Ümumi təhsil müəssisələrinin rus bölməsi üzrə uşaqların I sinfə qəbulu üçün sərbəst qaydada məktəb və müəllim seçiminə start verilir.***



Bu barədə "Unikal"a MÜTDA məlumat verib. 17 iyul 2025-ci il saat 11:00-dan etibarən Abşeron rayonu, Bakı, Sumqayıt və Gəncə şəhərlərindəki ümumi təhsil müəssisələrində rus bölməsi üzrə prioritetlə seçim sistemi ləğv olunur.

Bu tarixdən etibarən vətəndaşlar məktəb və müəllim seçimini sərbəst şəkildə həyata keçirə biləcəklər.

Qeyd edək ki, seçim prosesi mektebeqebul.edu.az portalı vasitəsilə aparılır.

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 13



# AQTA dondurmalarla bağlı aparılan sınağın nəticələrini açıqladı




***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən cari ildə keçirilən növbəti monitorinq çərçivəsində pərakəndə və topdansatış obyektlərində satışa çıxarılan yerli istehsallı dondurma məhsullarından ümumilikdə 50 nümunə götürülərək müayinə üçün müvafiq laboratoriyalara təqdim edilib.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, sınaq nəticələrinə əsasən, nümunələrdə təhlükəsizlik göstəriciləri üzrə hər hansı uyğunsuzluq aşkarlanmayıb.

Qeyd edək ki, xaricdən gətirilən dondurma məhsulları isə ölkənin gömrük ərazisinə daxil olarkən riskəsaslı nəzarətə cəlb edilir. Yalnız sınaq nəticələri uyğun çıxan məhsulların dövriyyəsinə icazə verilir.

## Səhiyyə Nazirliyində Pfizer şirkətinin nümayəndə heyəti ilə görüş keçirildi

***Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində Pfizer şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitriy Kozenkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

Bu barədə "Unikal"a Səhiyyə Nazirliyindən məlumat verilib.

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev qeyd edib ki, koronavirus pandemiyası zamanı ölkəmizdə 4 tanınmış vaksin şirkətlərinin peyvəndləri tətbiq olunub. Nazir qeyd edib ki, bu vaksinlərdən biri də "Pfizer-BioNTech" şirkətinin istehsal etdiyi peyvənd olub. Görüşdə bildirilib ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "Pfizer-BioNTech" vaksinini təcili istifadə üçün təsdiqlənən vasitələr reyestrinə daxil edib.

Teymur Musayev həmçinin, ölkə əhalisinin sağlamlığı üçün əhəmiyyətli olan digər vaksinlərin də Azərbaycanda tətbiqi məsələlərinin müzakirəsinə də səhiyyə nazirliyinin hazır olduğunu bildirib.

Görüşdə Pfizer şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitriy Kozenkov qeyd edib ki, Azərbaycan COVID-19 pandemiyanın başladığı ilk günlərdən mübarizədə özünəməxsus yol seçən ölkələr sırasında olub. Belə ki, Azərbaycan Hökuməti koronavirus infeksiyasının yayılmasının qarşısını almaq, onun iqtisadiyyata və insanların sosial vəziyyətinə vurduğu zərəri aradan qaldırmaq üçün operativ və uğurlu tədbirlər həyata keçirib.

Görüşdə Səhiyyə Nazirliyi ilə Pfizer şirkəti arasında qarşılıqlı əməkdaşlıq məsələlər ilə bağlı fikir mübadiləsi aparılıb və elmi-tibbi aspektlər müzakirə edilib.

## Qazax sakini göldə boğulub

***Qazax rayonunda bədbəxt hadisə baş verib.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, hadisə rayonun Kəmərli kəndində qeydə alınıb.

Rayon sakinləri olan ata və övladı kənddə göldə çimən zaman suda batıblar.

Ata suda boğulub, övladı xilas olunub.

Meyit sudan çıxarılaraq ailəsinə təhvil verilib.

# DYP-dən nasaz avtomobillərlə bağlı müraciət

***İsti hava nasaz avtomobildə yanğın ehtimalını dəfələrlə artırır.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin sürücülərə müraciətində bildirilib.

Qeyd edilir ki, yay mövsümü üçün xarakterik olan isti hava texniki-təhlükəsizlik baxımından nasaz, istismara yararsız nəqliyyat vasitələrində yanğın ehtimalını dəfələrlə artırır:

"Avtomobilin mühərrik sistemində, elektrik naqillərində, təkər və ya şinlərində mövcud olan nasazlıqlar isti hava şəraitində




özünü daha tez biruzə verir ki, bu da yanğınla müşahidə edilən ağır fəsadlara, yolda ləngimələrə, ətraf mühitin çirklənməsinə gətirib çıxarır". "Baş Dövlət Yol Polisi İdarəsi son günlər bu qəbildən olan hadisələrin sayının artmasını nəzərə alaraq, bir daha sürücülərə avtomobilin texniki sazlığını daim nəzarətdə saxlamağı, texniki-təhlükəsizlik baxımından yararsız nəqliyyat vasitələri ilə yola çıxmamağı, uzaq məsafələrə səfərlər zamanı avtomobili texniki müayinədən keçirməyi, avtomobili standartlara uyğun və yararlı odsöndürənlə təchiz etməyi və ondan istifadə qaydalarını mənimsəməyi tövsiyə edir", - qurumdan əlavə edilib.

# Əhliman Əmiraslanov Zərifə Əliyevanın ingilis dilli kitabına rəy yazdı

***Müasir elmin çağırışlarına uyğun olaraq beynəlxalq elm ictimaiyyətinin və dünyada nüfuzlu tibb universitetlərinin tələbə-müəllim heyətinə təqdim edilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinin təşəbbüsü, AMEA prezidenti akademik İsa Həbibbəylinin ön söz müəllifliyi ilə Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı elmi əsaslı kitabı ilk dəfə ingilis dilinə tərcümə olunaraq nəşr olunmuşdur.***



Kitab göz xəstəlikləri, onların diaqnostikası və müalicəsinə dair fundamental əsərdir. Bu gün də aktuallığını qoruyan və mütəxəssislərin, xüsusən də gənc oftalmoloqların geniş istifadə etdiyi bu kitab ilk dəfə 1983-cü ildə görkəmli oftalmoloq alimlər akademik Zərifə Əziz qızı Əliyeva, professor Nina Borisovna Şulpina və akademik Larisa Konstantinovna Moşetovanın həmmüəllifləri ilə rus dilində nəşr edilmişdir. Monoqrafiyanın hazırlanmasında məqsəd oftalmologiya elminin əsas nailiyyətlərini toplamaq, ümumiləşdirərək təhlil və şərh etmək, bununla da həkimlərin biliklərini artırmaq ehtiyacını ödəmək idi.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Zərifə xanım Əliyevanın tədqiqatlarında müasir müalicə üsulları ilə bağlı ümumiləşdirilmiş nəzəri prinsiplər və mülahizələr əvvəllər mövcud olan elmi modellərə deyil, praktiki təcrübədən və real həyatda aparılan müşahidələrdən əldə edilən nəticələrə əsaslanırdı.

Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı kitab beş bölmədən ibarətdir. Birinci bölmə həkim deontologiyası, tibbi etika və əxlaq məsələlərinə həsr olunmuşdur. İkinci bölmədə gözün biomikroskopiyasının müasir aspektləri əks olunmuşdur. Bu bölmədə gözün optik mühit və qişalarının biomikroskopiya üsulları, kataraktanın biomikroskopiyasının klinik əhəmiyyəti və s. haqqında geniş məlumat qeyd olunmuşdur. Üçüncü - oftalmovirusologiyanın əsasları bölməsində kəskin virus konyuktivitləri və gözün herpetik xəstəlikləri əks olunmuşdur. Dördüncü bölmə gözün zədələnmələrinə həsr olunmuşdur. Bu bölmədə göz almasına nüfuz edən zədələr, gözün kontuziyası, gözün mexaniki zədələnmələri zamanı təxirəsalınmaz yardım və müalicə tədbirləri, müxtəlif istehsal sahələrində gözün toksiki-kimyəvi zədələnmələri barədə ətraflı məlumat əks olunmuşdur. Beşinci bölmə də oftalmologiyanın aktual problemlərindən biri olan gözün mikrocərrahiyyəsinin propedevtikasına aid olub, bu bölmədə mikrocərrahi blokun təchizatı, mikrocərrahi müdaxilənin əsas prinsipləri, qlaukomanın, gözün kontuziyasının və zədələnmələrinin mikrocərrahi üsullarla müalicəsi geniş təsvir edilmişdir.

Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Oftalmologiyanın aktual problemləri" adlı vəsait oftalmoloqlar və bu sahə üzrə ixtisaslaşan həkim rezidentlər üçün əhəmiyyətli olub, ingilis dilinə tərcüməsi geniş oxucu kütləsinin qazanılmasına şərait yaradacaqdır.

Akademik Zərifə Əliyeva gənc nəslin təlim-tərbiyəsində, peşəkar həkim-oftalmoloqların, yüksək ixtisaslı elmi kadrların yetişməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Onun fədakar zəhməti sayəsində ərsəyə gəlmiş dərs vəsaitləri, dərsliklər, monoqrafiyalar bu gün də təkcə Azərbaycanda deyil, ümumən dünyada oftalmologiya elminin inkişafına xidmət edir, gənc ixtisaslı həkimlərin və bu sahədə tədqiqatlar aparan alimlərin yetişməsinə kömək göstərir.

Zərifə xanım Əliyevanın qələmə aldığı orijinal monoqrafiyalarında, monumental kitablarında, çoxsaylı elmi və elmi-kütləvi əsərlərində, ən əsası da hələ sağlığında el məhəbbəti qazandığı, özünün heykəlini ucaltdığı insanların qəlbində daim yaşayır və yaşayacaqdır. Akademik Zərifə Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün tükənməz, təkrar bir örnəkdir.

***Əhliman Əmiraslanov***
***Akademik, SSRİ Dövlət Mükafatı Laureatı***

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 14



# Qarabağda güzəştli şərtlərlə ev almaq mümkün olacaq

***Azərbaycan Prezidentinin imzaladığı Fərman ilə "İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, sənədlə ipoteka kreditinin verilməsinə dair yeni tələblər müəyyənləşib:



"Bununla, Qarabağ və Şərqi Zəngəzurda güzəştli şərtlər ilə mənzilə sahib olmaq mümkün olacaq. Yeni dəyişikliklərə əsasən, güzəştli ipoteka kreditinin məbləği kreditin verildiyi tarixə işğaldan azad edilmiş ərazilərdə yaşayış sahəsinin qiymətinin 90 faizindən çox ola bilməz. Digər dəyişiklik işğaldan azad olun ərazilərdə ipoteka krediti üzrə ödəniləcək aylıq məbləğ borcalanın məcmu gəliri ilə bağlıdır. Belə ki, işğaldan azad edilmiş ərazilərdə yaşayış sahəsinin alınması məqsədilə verilən kredit məbləği borcalanın aylıq məcmu gəlirinin 75 faizindən çox olmamalıdır. Bu tələb ipoteka kreditinin məbləğinin kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən ilkin bazardakı yaşayış sahəsinin qiymətinin 60 faizindən az olduğu hallara şamil edilmir.

Yeni qaydalar gənc ailələrin güzəştli şərtlər ilə ipoteka kreditindən istifadə etməklə Qarabağ və Şərqi Zəngəzurda evə sahib olmasına imkan verəcək. Bu bir tərəfdən Qarabağda məskunlaşma prosesini daha da intensivləşdirəcək, digər tərəfdən isə işğaldan azad olunan ərazilərdə iqtisadiyyatın sürətli formalaşması və inkişafına dəstək olacaq. Bu da təbi ki, gənclərimizin mənzil təminatının yaxşılaşdırılması baxımından da vacibdir. Bütövlükdə, yeni dəyişikliklər həm güzəştli şərtlər ilə Qarabağda mənzilə sahib olmağa, həm də həmin ərazilərimizin sosial-iqtisadi inkşafına töhvə verəcək".

# Şəhid xatirəsinə ithaf edilən "Azad" romanı işıq üzü görüb

***Gənc və istedadlı yazar Təhminə Rafiqqızı yenidən oxucuların görüşünə gəlib. Müəllifin gerçək hadisələrə əsaslanan növbəti kitabı "Azad" adlanır.***

Müəllif bu romanı Vətən uğrunda canından keçmiş şəhid Azad Abbasovun əziz xatirəsinə ithaf dib.

Roman həm emosional gücü, həm də vətənpərvərlik ruhunu əks etdirməsi baxımından oxucuların yaddaşında dərin iz buraxacaq. Əsərdə Azərbaycanın şanlı mübarizəsi fonunda bir qəhrəmanın həyatı təsirli şəkildə qələmə alınıb.

"Gənclik" nəşriyyatında nəfis şəkildə çap olunmuş kitabın redaktoru Süleyman Qaradağlı, "Ön söz" müəllifi isə Əlirza Xələflidir.

Qeyd edək ki, Təhminə Rafiqqızı (Verdiyeva) 1990-cı ildə Laçın rayonunda anadan olub, 2008-ci ildə Sumqayıtda orta məktəbi, 2013-cü ildə Bakı Slavyan Universitetinin "Tərcümə" fakültəsini bitirib. Daha sonra həmin universitetdə jurnalistika üzrə magistr təhsili alıb. 2016-cı ildən Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) müxbir kimi fəaliyyət göstərən müəllif, həmçinin bir çox esse və şeir müsabiqələrinin qalibidir. Tədqiqat məqalələri beynəlxalq jurnallarda, o cümlədən nüfuzlu nəşrlərdə dərc olunub. Türkiyədə keçirilən ədəbi müsabiqələrdə mükafat-




lara layiq görülüb. Əsərləri müxtəlif ədəbi portallarda, qəzetlərdə və jurnallarda yayımlanıb.

Bu roman müəllifin ikinci kitabıdır və ədəbi yaradıcılığında yeni bir zirvənin müjdəçisidir. Müəllifin "Sevgimin səsi" adlı ilk şeirlər kitabı bu ilin fevralında işıq üzü görüb.

# "AzərEnerji" Naxçıvan enerji sistemində yenidənqurmaya başladı

***Naxçıvan Muxtar Respublikasında ötən əsrin 50-ci illərinin sonlarından istismarda olan hava elektrik verilişi xətlərinin "AzərEnerji" ASC tərəfindən sökülərək yenidən qurulmasına başlanılıb.***

"Unikal" xəbər verir ki, ilkin mərhələdə 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" hava elektrik verilişi xətləri ikidövrəli olmaqla, ümumilikdə 68 km məsafədə yenidən çəkilir.

Qeyd edək ki, Naxçıvan ötürücü şəbəkəsində istismar müddətini çoxdan keçən xətlərdə həyata keçirilən işlər nəticəsində enerjinin ötürülmə qabiliyyətini yüksəltməklə yanaşı, enerji təchizatında baş verə biləcək nasazlıqların, qəzaların qarşısı alınacaq, dayanıqlığı və etibarlığı artırılacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2024-cü il tarixli "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 235 nömrəli Fərmanının icrası olaraq, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası enerjisisteminin elektrik enerjisi generasiya və ötürücü infrastrukturlarının idarəedilməsi üçün Cəmiyyətin tərkibində "Naxçıvan Enerji" MMC təsis edilib, həmçinin "Naxçıvan Muxtar Respublikasının Elektroenergetika Strategiyası" hazırlanıb.

Strategiyada "2025-2027-ci illər üzrə Reabilitasiya və Yenidənqurma Tədbirləri" və "Strateji Baxış İstiqamətləri" müəyyən olunub. Bu işlər çərçivəsində 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" ötürmə xətlərinin yenidən çəkilməsi ilə yanaşı 154/110/10 kV-luq "Babək", 110/35/10 kV-luq "Çeşməbasar" və 110/35/10 kV-luq "Naxçıvan" yarımstansiyaları müasir tələblərə uyğun olaraq tam şəkildə yenidən qurulacaq. Həmçinin, Naxçıvan Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzi, eləcə də yardımçı texniki infrastrukturlar da yaradılacaq.

## Qazaxıstan XTQ mənsubları Azərbaycan dronları barədə məlumatlandırıldı

***Azərbaycan və Qazaxıstan müdafiə nazirliklərinin Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) nümayəndə heyəti arasında döyüş təcrübəsi mübadiləsi məqsədilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Görüşdə şərti düşmənlə əməliyyatlara cəlb olunmuş bölmələrin silah-sursatı, təchizatı, təşkilatlanması, bölmələrin tətbiq qaydaları və onların təkmilləşdirilməsi məsələləri üzrə ətraflı fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində qonaqlar Azərbaycan istehsalı olan zərbə dronları barədə məlumatlandırılıb.

Sonra Ümumqoşun Təlim Meydanında qeyd olunmuş mövzu üzrə nümayiş məşqində silah və təchizatın döyüş tətbiqi, bölmələrin taktiki fəaliyyətləri izlənilib.

Tədbirin sonunda qonaqlara xatirə hədiyyələri təqdim olunub.

## "Azərsun Holdinq" Mətbuatın 150 illiyi ilə bağlı sərgi təşkil edib

***"Azərsun Holdinq" Milli Mətbuatın 150 illiyi ilə bağlı növbəti layihəsini həyata keçirir.***

"Unikal" xəbər verir ki, Park Bulvar alış-veriş mərkəzinin birinci mərtəbəsində mətbuatın 150 illiyinə həsr olunmuş sərgi təşkil olunur. Sərgidə mətbuatın zəngin və keşməkeşli tarixindən bəhs edən fotoşəkillər nümayiş edilir.

Layihənin əsas məqsədi Azərbaycan mətbuatının keçdiyi yolu, onun formalaşmasında əməyi olan görkəmli jurnalist və redaktorların fəaliyyətini cəmiyyətə tanıtmaq, həmçinin bu sahədə maarifləndirməni təşviq etməkdir. Sərgidə nümayiş olunan materiallar "Azərsun Holdinq"in 2025-ci il üçün hazırladığı "Mətbuat 150 il" adlanan təqvim layihəsinin fotoları əsasında hazırlanıb.

Burada "Əkinçi" qəzetindən başlayaraq müxtəlif dövrlərdə fəaliyyət göstərmiş mətbuat nümunələri haqqında məlumatlar əks olunub.

## Ağdaşda 3297 baş heyvan süni yolla mayalandırılıb

***Heyvandarlığın inkişaf etdirilməsi və onun məhsuldarlığının artırılmasına təsir edən faktorlardan biri də heyvanların cinsinin yaxşılaşdırılmasıdır.***

Ağdaş rayonunda kənd təsərrüfatı heyvanlarının cinsinin yaxşılaşdırılması məqsədi ilə iribuynuzlu mal-qaranın süni mayalandırılması uğurla həyata keçirilir. 2025-ci ilin yanvar- iyun aylarında 3297 baş iribuynuzlu mal-qara elit törədicilərin toxumları ilə süni mayalandırılmışdır. Heyvanların süni yolla mayalandırılmasından 2065 baş cins buzov doğulmuşdur. Rayonda mal-qaranın cinsinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının istehsalının artırılmasına müsbət təsir göstərir.

***Ağdaş Rayon Statistika İdarəsi***

## Ucarda kənd təsərrüfatı statistikası

***2025-ci ilin yanvar-iyun aylarında kənd təsərrüfatının ümumi məhsulu 174587,0 min manat olmuşdur.***

Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çox olmuşdur. Məhsul buraxılışının 48542,8 min manatını və ya 27,8 faizini bitkiçilik məhsulları, 126044,2 min manatını və ya 72,2 faizini heyvandarlıq məhsulları təşkil edir.

***Ucar Rayon Statistika İdarəsinin rəisi Şakir Qasımov***

26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 15



## Peskov Rusiya və Ukraynanın danışıqlar apardığını açıqladı

***Rusiya ABŞ-nin vasitəçiliyi ilə də olsa, Ukrayna nümayəndələri ilə birbaşa danışıqlar aparır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

"Söhbət konkret olaraq birbaşa danışıqlardan gedir. Lakin onlar ABŞ-ın vasitəçilik səyləri ilə aparılır", - Peskov əlavə edib.

## Suriyanın parçalanmasına imkan verməyəcəyik - Ərdoğan

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İsraili "terrorçu dövlət" adlandırıb.***

"Unikal" xəbər verir ki, Ərdoğanın sözlərinə görə, bölgənin əsas problemi İsrailin təcavüzüdür.

"Dostlarının arxasında gizlənən İsrail son iki gündə quldurluq zonasını Suriyaya köçürüb. İsrail qanunu tanımayan, qaydaları tanımayan, prinsipsiz, korlanmış və çılğın terrorçu dövlətdir. Bölgəmizin əsas problemi İsrailin təcavüzüdür. Suriyanın parçalanmasına imkan verməyəcəyik. Suriyanın cənubu ilə şimalı arasında dəhliz yaratmaq arzusunda olanlar məqsədlərinə çatmayacaqlar", - Türkiyə lideri bildirib.

Onun sözlərinə görə, "İsrailə güvənən və onun tərəfini tutanlar son nəticədə ciddi səhv etdiklərini anlayacaqlar".

## Ukraynanın yeni Baş naziri təyin edildi

***Ali Rada Yuliya Sviridenkonun Ukraynanın baş naziri təyin edilməsinə səs verib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna KİV məlumat yayıb.

## Simonyan boşandı

***Ermənistan Respublikası Milli Assambleyasının sədri Alen Simonyan və Mariam Marqaryan boşanıblar.***

"Unikal" xəbər verir ki, bu barədə erməni mətbuatı yazıb. Onlar Ədliyyə Nazirliyinin Vətəndaşlıq Qeydiyyatı Mərkəzinə müraciət edərək boşanmaq istədiklərini bildiriblər. Və qanuna görə, prosesi başa çatdırmaq üçün onlara bir neçə ay vaxt verilib. Məlumatı Simonyan təsdiqləyib.

Qeyd edək ki, Simonyan bir müddət əvvəl Mariam Marqaryana dəbdəbəli ad günü keçirməsi ilə gündəmə gəlmişdi.

***Seymur Əli***

## "Paşinyan postunu tərk etməlidir" - Abramyan

***Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan postunu tərk etməli və seçkilərdə iştirakdan imtina etməlidir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyan "RİA Novosti"yə açıqlamasında deyib.

"Bu adam yenidən baş nazir ola bilməz", - deyə o, ifadə edib.

Abrahamyan jurnalistlərlə söhbətində Paşinyanın Ermənistan xalqına verdiyi vədləri yerinə yetirmək iqtidarında olmadığını vurğulayıb.

***Gülayə Mecid***

# Paşinyan dəhlizə "hə" dedi - Türkiyə-Amerika planı işə düşür

***Paşinyan Türkiyə-Amerika planına "hə" dedi: dəhliz investisiya adı altında açılacaq.***



"Unikal" xəbər verir ki, erməni jurnalist və politoloq Boris Tamoyan belə bir başlıqlı məqalə ilə çıxış edib. Onun sözlərinə görə, dünənki mətbuat konfransında Nikol Paşinyan əmin edib ki, onun hökuməti heç vaxt Ermənistan ərazisindən keçən və Ermənistanın nəzarəti altında olmayan yolu müzakirə etməyib və müzakirə etməyəcək: "İlk baxışdan səslənən fikir milli maraqların qorunmasını açıq şəkildə ifadə edir. Lakin eyni mətbuat konfransının davamı tamam başqa mesajı nəzərdə tutur: Baş nazir, deyəsən, investisiya proqramı şəklində dəhliz təmin etmək niyyətini açıqlayaaq, siyasi diqqətə əl atır.

Paşinyan deyib: Ermənistanda yol infrastrukturuna investisiyaların cəlb edilməsi üçün şirkətin yaradılması müzakirə edilir.

Bu, əslində, ictimai narazılığı alovlandırmamaq üçün müxtəlif sözlərlə təqdim edilən dəhliz ideyasının özüdür. Bunun sadəcə söz oyunu olmadığını bir neçə gün əvvəl ABŞ səfiri Tom Barakın açıqlamaları şəklində ortaya çıxan diqqətəlayiq məlumatlar da sübut edir.

ABŞ-nin Türkiyədəki səfiri Vaşinqtonun dəhlizə marağını faktiki olaraq ortaya qoyub. Onun sözlərinə görə, ABŞ Ermənistanla Azərbaycan arasında nəzərdə tutulan nəqliyyat marşrutunu nəzarətə götürməyi təklif edib ki, bu da uzunmüddətli sülhə töhfə verir.

Danışıqlardan xəbəri olan regional mənbə qəzetə bildirib ki, dəhlizin idarə olunması üçün özəl şirkət yaratmaq ideyasını ilk dəfə Türkiyə təklif edib. Yeri gəlmişkən, bu təklif həm Azərbaycan, həm də Ermənistan tərəfindən bəyənilib.

Bu fonda Paşinyanın "Ermənistan infrastruktura sərmayələri cəlb edəcək şirkətin yaradılmasını müzakirə edir" deməsi artıq sadəcə iqtisadi təşəbbüs kimi səslənmir. Bu, Türkiyə-Amerika layihəsinə de-fakto bəli deməkdir, onun vasitəsilə Ermənistan ərazisi üzərində xarici (əsasən Qərb, xüsusən də Amerika) nəzarəti bərqərar etməyə cəhd ediləcək.

Əsas məqsəd Ermənistan ərazisindən "dəhliz" sözünü işlətmədən dəhliz təmin etməkdir. İcarəyə və investisiyalara dair danışıqlar isə sadəcə yumşaq bir örtükdür. İctimai rəyi elə hazırlayırlar ki, dəhliz yoxdur, biznes var, inkişaf var. Reallıqda isə bəzi hissələrə nəzarət amerikalılara, ola bilsin ki, türklərə veriləcək.

Paşinyanın mətbuat konfransı isə bütün başqa mövzuları bir kənara qoyaraq, ictimai, rəsmi şəxsin bu proqrama "hə" demək və ya onun başlandığını elan etmək addımı idi".

***Ağarza Elçinoğlu***

# "Kreml Trampın təhdidinə məhəl qoymur" - KİV

***ABŞ prezidenti Donald Trampın münaqişəni 50 gün ərzində həll etmək ultimatumuna baxmayaraq, Rusiya Ukraynaya növbəti böyük hücuma keçib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "The Hill" qəzeti yazır. Qəzet qeyd edib ki, Kreml Trampın "bu təhdidinə məhəl qoymayıb".

Bundan əvvəl Donald Tramp Rusiya-Ukrayna münaqişəsi ilə bağlı açıqlama verib. O qeyd edib ki, Moskvadan "çox narazıdır" və ultimatum verib:

"Əgər 50 gün ərzində hərbi əməliyyatlar dayandırılmasa, ABŞ Rusiya və onun tərəfdaşlarına qarşı 100%-lik ikinci dərəcəli rüsumlar tətbiq edəcək".

***Gülayə Mecid***



# Kobaxidze türkiyəli nazirlə regional sülhü müzakirə etdi

***Gürcüstanın baş naziri İrakli Kobaxidze Türkiyənin ticarət naziri Ömər Bolat ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV yazıb. Tərəflər iki ölkə arasında strateji tərəfdaşlığın əhəmiyyətini vurğulayıblar, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə müsbət dinamikasını qeyd ediblər, birgə layihələri və ticarət dövriyyəsinin artım tendensiyalarını müzakirə ediblər.



Kobaxidze Gürcüstanın dialoq və əməkdaşlıq yolu ilə Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olmasına töhfə verməyə hazır olduğunu bir daha təsdiqləyib.

Gürcüstan hökumətinin başçısı Türkiyə nümayəndə heyətini oktyabrın 22-23-də Tbilisidə keçiriləcək V İpək Yolu Forumunda iştiraka dəvət edib.

***Ağarza Elçinoğlu***

# Ukrayna 120-dən çox PUA ilə Rusiyaya hücum edib

***Ukrayna Silahlı Qüvvələri iyulun 17-nə keçən gecə pilotsuz təyyarə tipli uçuş aparatları ilə Rusiyanın 12 bölgəsinə hücum edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi açıqlayıb. Məlumata görə, hava hücumundan müdafiə sistemləri 122 hava hədəfini vurub və ya ələ keçirib. Ən çox pilotsuz təyyarənin Bryansk və Kursk vilayətləri üzərində - 43 və 38 hədəf vurulub.

Moskva üzərində isə üç PUA zərərsizləşdirilib.

***Ağarza Elçinoğlu***



26_27 IYUl-QARA.qxd 7/17/2025 10:37 PM Page 16



# Azərbaycan boks millisi Avropa birinciliyini 13 medalla başa vurub

***Serbiyanın Novi Pazar şəhərində yeniyetmə boksçular arasında keçirilən Avropa birinciliyi başa çatıb.***

Boks Federasiyasından "Unikal"a verilən məlumata görə, yarışın son günündə Azərbaycan millisinin daha bir medalı rəsmiləşib.

+80 kiloqramda mübarizə aparan Səfdər Məmmədzadə finalda rusiyalı Boqdan Smolkinlə döyüşüb. Görüş rəqibin 3:2 (26:30, 28*:28, 28*:28, 26:30, 29:27) hesablı qələbəsi ilə yekunlaşdığından boksçumuz gümüş medalla kifayətlənib.

Bununla da, yığmamız Avropa birinciliyini 1 qızıl, 4 gümüş və 8 bürünc medalla başa vurub. Milli bu göstərici ilə komanda hesabında 3-cü yeri tutub.




Boksçularımızdan daha öncə Əminə Tağı (50 kiloqram) Avropa çempionu tituluna yiyələnib. Cəmilə Muradlı (52 kiloqram), Fidan Bakarova (63 kiloqram), Səma Abbasova (66 kiloqram) gümüş, Qardaş Rəhimov (46 kiloqram), Məhəmməd Rəsulov (50 kiloqram), Raul Heydərli (54 kiloqram), Şahin Aslanov (60 kiloqram), Haqverdi Həsənov (63 kiloqram), Aylin Nəzərova (46 kiloqram), Gülər Hüseynova (48 kiloqram) və Zəhra Məmmədova (54 kiloqram) bürünc medal qazanıblar.

# "Real" Vinisiusu satmaq qərarına gəldi

***İspaniyanın "Real Madrid" klubu futbolçusu Vinisius Juniorla müqaviləninin uzadılması barədə danışıqları dayandırıb.***

"Unikal" xarici media orqanlarına istinadla xəbər verir ki, buna səbəb futbolçunun maaşında endirimi qəbul etməməsi və əksinə, məvacibinin artırılmasını tələb etməsidir. O, "kral klubu"ndan ilinə 30 milyon avro istəyib. Lakin madridlilər bununla razılaşmayıb və ona satışa çıxarılacağı bildirilib.




Qeyd edək ki, 25 yaşlı hücumçunun "Real Madrid"lə mövcud müqaviləsi 2027-ci ilin yayına qədər qüvvədədir. O, 2018-ci ildən "kral klubu"nun heyətində çıxış edir.

# Basketbolçu ofisiantlara 11 500 dollar bəxşiş verdi

***Əfsanəvi basketbolçu Maykl Cordon Yunanıstanda tətildədir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Cordon oyunçu dostları Luka Dončiç, Karmelo Antoni və Bam Adebayo ilə məşhur dəniz məhsulları restoranında nahar edib.

Məlumata görə, basketbolçu ənənəvi yunan yeməklərindən o qədər həzz alıb ki, o, səmimi qarşılandığı üçün işçilərə 11 500 dollar bəxşiş verib. Onun yüksək məbləğdə bəxşiş verməsi hətta dostlarını da şoka salıb.

Məşhur basketbolçunun bu jesti diqqət çəkib.

***Gülayə Mecid***




# Qurban Qurbanov Belfastda - Oyunu stadiondan izlədi

***"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Şimali İrlandiyaya səfər edib.***

Bu haqda klubun mətbuat xidmətindən bildirilib. 53 yaşlı mütəxəssis komandasının Avstriya toplanışı başa çatdıqdan sonra video-analitik məşqçi Yanuş Vasilyevlə birgə Belfasta gedib.



Səfərdə məqsəd "Qarabağ"ın Çempionlar Liqasının 2-ci təsnifat mərhələsindəki potensial rəqibləri "Linfild"lə (Şimali İrlandiya) "Şelburn" (İrlandiya) arasındakı oyunu izləmək olub.

Baş məşqçi oyunu izlədikdən sonra Azərbaycana qayıdıb.

Qeyd edək ki, "Uindzor Park" stadionunda keçirilən matç 1:1 hesablı bərabərliklə başa çatıb. Sözügedən komandalar arasında ilk görüş "Şelburn"un 1:0 hesablı qələbəsi ilə yekunlaşmışdı.

Buna görə də "Şelburn" 2-ci təsnifat mərhələsində Ağdam təmsilçisinə rəqib olub.

"Qarabağ" ilk matçını 23 iyulda səfərdə, cavab görüşünü 30 iyulda Bakıda keçirəcək.

SUMQAYIT FK

# "Sumqayıt" Madaqaskar yığmasının futbolçusunu transfer etdi

***"Sumqayıt" heyətinə yeni futbolçu cəlb edib.***

Klubdan "Unikal"a verilən məlumata görə, "kimyaçılar" Madaqaskar yığmasının üzvü Aleksandr Ramalinqomun keçidini rəsmiləşdirib.

Onunla 1+1 illik müqavilə imzalanıb.

Qeyd edək ki, hücumçu 2023-2024-cü illər mövsümündə "Səbail"də oynayıb.

# "Qarabağ"ın Çempionlar Liqasındakı rəqibi bəlli oldu

***UEFA Çempionlar Liqasında I təsnifat mərhələsinə yekun vurulub.***




"Unikal" xəbər verir ki, son oyun günündə Azərbaycanın turnirdəki yeganə təmsilçisi "Qarabağ"ın II raunddakı potensial rəqibləri olan İrlandiyanın "Şelburn" və Şimali İrlandiyanın "Linfild" komandaları cavab oyununda üz-üzə gəlib.

İlk matçda 1:0 hesablı qələbə əldə edən "Şelburn" səfərdə qollu heç-heçə (1:1) ilə razılaşıb və turu keçən tərəf olub. Bununla da onlar Ağdam təmsilçisinin rəqibi olublar.

Qeyd edək ki, II təsnifat mərhələsinin ilk oyunları iyulun 22-23-də, cavab görüşləri isə 29-30-da təşkil olunacaq.

# Sumqayıt mərhələsinin iştirakçıları məlum olub

***Basketbolun 3x3 növü üzrə Dünya Seriyasının Sumqayıt mərhələsinin iştirakçıları məlum olub.***

Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Sumqayıt mərhələsində dünyanın müxtəlif ölkələrindən olan komandalar çempionluq uğrunda mübarizə aparacaqlar. Yarışda ümumilikdə 16 kollektiv iştirak edəcək. Onlardan 12-si milli (Azərbaycan, Çexiya, Polşa, Ukrayna, Slovakiya, Qazaxıstan, Madaqaskar, Çin, Benin, Fransa, Böyük Britaniya, Latviya), 4-ü isə klub olacaq ("Karolina"(Puerto Riko), "Pekin"(Çin),"Takasaki"(Yaponiya), "CS Rapid"(Rumıniya).

Qeyd edək ki, Sumqayıt mərhələsinin oyunları 26-27 iyulda şəhərin dənizkənarı bulvarında baş tutacaq.

